# UŞAQLAR SİZİN ÜÇÜN -1-

**HARUN YƏHYA**

Q

# MÜNDƏRİCAT


- Tufan ilə tısbağa
- Sədat ilə fil
- Qardaşının Tolqaya öyrətdikləri
- Ömər ilə pinqvin
- Ersin ilə tutuquşu
- Hər şeydə bir xeyir vardır
- Əhməd ilə şən ördək
- Uzun quyruqlu sevimli dələlər
- Gözəl sözə uymanın əhəmiyyəti
- Möminlərin təmizliyi
- Çetin ilə bəzəkli tovuz quşu
- Can ilə balaca quş
- Əlinin kiçik dostu
- Murad ilə pişik
- Cüneyd ilə mürəkkəb balığı
- Kərəm ilə dəniz atı
- Orxan ilə Həsən baba
- Osman baba ilə nəvəsi
- Bizim sinif

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta  təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik  külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur,  İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd  tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə  öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli  xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# SEVİMLİ UŞAQLAR

• Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin iflasına xüsusi bir yer ayrılmasının səbəbi, bu nəzəriyyənin hər cür din əleyhdarı fəlsəfənin əsasını meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm, 140 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin bir yalan olduğunu göz qabağına gətirmək çox əhəmiyyətli bir imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlara çatdırıla bilməsi isə zəruridir. Bəzi oxucularımız bəlkə tək bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də hər kitabımızda bu mövzuya qısa da olsa bir yer ayrılması uyğun görülmüşdür.

• İfadə edilməsi lazım olan başqa bir xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri istiqamətində izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilir. Allahın ayələri ilə əlaqədar bütün mövzular, oxucunun ağlında heç bir şübhə və ya sual yaratmayacaq şəkildə izah edilir.

Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların kiçikdən böyüyə hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat hesabına, kitablar "bir nəfəsə oxunan kitablar" deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmək mövzusunda qəti bir rəftar göstərən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir.

• Bu kitab və müəllifin digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə köçürmələri baxımından faydalı olacaq.

• Bununla yanaşı, yalnız Allahın rizası üçün yazılmış olan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük bir xidmət olacaq. Çünki müəllifin bütün kitablarında isbat və qaneedici tərəflər olduqca etibarlıdır. Buna görə də dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına təşviq etməkdir.

• Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatlarının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Buna hesab kitabı əlinə alan adam, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsər olduğunu görəcək. İmani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynaq təcrübəsinin olduğuna şahid olacaq.

• Bu əsərlərdə, digər bəzi əsərlərdə müşahidə olunan, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəsliyə qarşı lazım olan ədəbə və hörmətə diqqət edilməyən üslublara, ümidsizlik verən şübhəçi və ümidsizliyə aparan izahatlara rast gələ bilməzsiniz.

# TUFAN VƏ TISBAĞA

Tufan ən sevdiyi hekayələrdən biri olan “Dovşan ilə tısbağa”-nı oxuyurdu. Dovşanın vəziyyətinə çox gülmüş və tısbağadan “ağıllı olmağın” nə qədər əhəmiyyətli olduğunu, ağılla bütün fiziki üstünlüklərə qalib gələ biləcəyini öyrənmişdi. Sonra birdən-birə kitabdakı tısbağa Tufana səsləndi:

Tısbağa: Salam Tufan! Bu kiçik yaşında bu qədər ağıllı olub, dovşanla olan hekayəmdən ibrət almağın çox gözəldir.

Tufan: Sən neçə yaşındasan?

Tısbağa: Belə balaca görünməyimə baxma, mən 45 yaşındayam. Tısbağalar orta hesabla 60 il yaşayarlar. Hətta Testusda adlı bir cins tısbağa 189 yaşına qədər yaşaya bilir.

Tufan: Ən çox hansı fəsli sevirsən?

Tısbağa: Temperaturun həyatımızdakı əhəmiyyəti böyükdür. Çünki bədən hərarəti ətraf mühitdəki temperatura görə dəyişər və ümumiyyətlə ətraf mühitdəki temperaturdan 0,1-0,2 dərəcə aşağı olar. Həzm sistemimiz də istilik artdıqca sürətlənər. Hər şeyi yaradan Uca Allah kiçik bədənimizi düşünərək bizə isti havalarda asanlıq təmin etmək üçün belə bir xüsusiyyət vermişdir. Biz Allahdan gələcək hər nemətə möhtacıq, O isə heç bir şeyə ehtiyacı olmayandır.

Tufan: Ən sevdiyiniz yemək hansıdır?

Tısbağa: Sarı rəngli “pələng dişi çiçəyin” çox xoşumuza gələr. Bilirsənmi gözlərimizin çox iti görməsiylə yanaşı biz xüsusilə də sarı rəngi çox yaxşı dərk edirik. Ən sevdiyimiz yeməyi asanlıqla tapa bilərik.

Tufan: Bəs qış yuxusuna gedirsinizmi?

Tısbağa: Bəli, Oktyabr ayından etibarən havalar soyduqca və yeməklər azaldıqca bizim də fiziki fəaliyyətlərimiz azalar, özümüzü qorumaq üçün yuxu vəziyyətinə keçərik. Ürək döyüntülərimiz və tənəffüsümüz də yavaşlayar. Oktyabr ilə Mart ayları arasında qış yuxusuda olarıq. Allah bizi bu şəkildə yaratdığı üçün qışda oyanıq qalaraq yemək yeyə bilməyib, ölməkdən xilas oluruq. Halbuki Allah ən uyğun vaxtda bizi yatızdıraraq nəslimizi qorumuşdur.

Tufan: Sən quruda yaşayırsan, yəqin ki, bir də suda yaşayanlarınız var. Mənə onlar haqqında da məlumat verərsənmi?

Tısbağa: Haqlısan əziz Tufan. Quru, şirin su və dəniz tısbağası olmaq üzrə müxtəlif növlərimiz var. Mən quruda yaşayıram, daha çox tarlaları, yumşaq torpaqları, üzüm bağlarını xoşlayaram. Şirin su tısbağaları, yəni akvariumda yaşayanlar isə, gölləri, çay sahillərini xoşlayarlar. Dəniz tısbağaları isə isti dənizlərdə yaşayar və yumurtlama vaxtı yer dəyişdirərlər. Sənə Karetta adlı dəniz tısbağalarıyla əlaqədar maraqlı bir məlumat verim:

Karettalar yumurtalarını qoymaq üçün isti dəniz sahillərinə gedərlər. Yumurtadan çıxan balalar Allahın ilham etməsiylə dənizdən əks olunan işığa tərəf hərəkət edərək, yaşayacaqları mühitə, yəni dənizə yönələrlər. Bu kiçik balalar hələ doğular doğulmaz yaşayacaqları ən uyğun mühitin dəniz olduğunu necə bilsinlər ki? Məhz bu, şübhəsiz ki, Uca Rəbbimizin ilham etməsiylədir.

Tufan: Haqlısan, düşünərək yaşayan hər insan üçün yer üzü Allahın ayələriylə doludur. Sənin, digər bütün heyvanların, mənim, ağacların və s. buna nümunədir. Hər şeyin Onun təcəllisi olduğunu heç unutmadan yaşamalıyıq. Bu gözəl söhbət üçün təşəkkür edirəm. Əlvida.

Tısbağa: Əlvida ağıllı uşaq!

## UZUN AYAQLI LEYLƏKLƏR

Leyləklər, 1-1,5 m boylarında, böyük ağ qanadları olan iri, köçəri quşlardır. Dimdiklərinin və uzun ayaqlarının qırmızı olması leyləklərə xoş bir gözəllik bəxş edir. Leyləklər hər il sıx sürülər halında köç edirlər. Çünki soyuq ərazilərdə yaşaya bilməzlər. Leyləklər bizi yayın isti günləriylə müjdələyir. Havaların nə vaxt isinəcəyini bilmələri bir möcüzədir. Aradan bir il keçib təkrar yaz gəldikdə leyləklər minlərlə kilometr yolu geri qayıdıb köhnə yuvalarını taparlar. Əlbəttə ki, bu cür güclü bir yaddaş və belə möhtəşəm bir istiqamət tapma duyğusunu leyləklərə Rəbbimiz olan Allah ilham edir.

## SEDAT İLƏ FİL

Həftə sonu anası Sedatı zooparka aparmışdı. İlk dəfə bu qədər müxtəlif heyvanı bir yerdə görürdü. Sedat, fillərin olduğu yerə doğru irəlilədi. Bala fil xortumuna dolanıb düşür və hər dəfə anası ona kömək etməyə gəlirdi.

Ana fil: Gördüyün kimi balam hələ çox kiçik olduğundan xortumundan necə istifadə edəcəyini bilmir. Onu tam 12 il heç yanımdan ayırmayacağam və ilk 6 ay ərzində xortumundan necə istifadə edəcəyini öyrədəcəm.

Sedat: Həmişə maraqlanmışam, siz xortumlarınızı hansı işlərdə istifadə edirsiniz, bununlamı nəfəs alırsınız?

Ana fil: Xortumlarımız bizi digər heyvanlardan fərqləndirən ən böyük xüsusiyyətimizdir. Burun dəliklərimiz bu xortumların ucundadır. Xortumumuzu yeməkləri və suyu ağzımıza aparmaq, əşyaları qaldırmaq, iyləmək üçün istifadə edir, içində düz 4 litr su saxlaya bilirik. Heç bilirsənmi, balaca bir noxud dənəsini belə xortumumuzla qopara bilərik. Əlbəttə ki, bu xortuma təsadüflər nəticəsində sahib olmadıq. Bu hər şeyi yaradan Uca Allahın bizə olan lütfüdür.

Sedat: Qarnınızı necə doyurursunuz?

Ana fil: Quruda yaşayan heyvanların ən böyüyü bizik. Bir fil gündə təxminən 330 kilo ot yeyər. Bir günün 16 saatını yemək yeməyə sərf etmək məcburiyyətindəyik.

Sedat: Yaxşı, bəs dişləriniz?

Ana fil: Ağzımın kənarında da gördüyün kimi iki iti uzun dişimiz var. Bu dişlərlə həm özümüzü qoruyur, həm də su tapmaq üçün yerdə deşik açırıq. Əlbəttə ki, dişlərimiz bütün bu işlər nəticəsində çox yeyilir. Məhz Uca Rəbbimiz buna görə də bizə çox əhəmiyyətli bir xüsusiyyət vermişdir. Yeyilən hər dişimizin əvəzinə arxa cərgədəki dişlərdən bir yenisi gəlir. Allah bizi belə yaratdığı üçün yeni diş çıxarmağa və bunu gərəyi kimi istifadə etməyə gücümüz çatır.

Sedat: Qarnından səslər gəlir, yəqin ki, acmısan ?

Ana fil: Bu səsləri öz aramızda xəbərləşmək üçün biz çıxardarıq. Beləcə 4 km məsafədən belə xəbərləşə bilərik.

Sedat: Bəs öz aranızda necə danışırsınız?

Ana fil: Allah alnımızda, insanların eşidə bilmədiyi bir səs çıxaran xüsusi bir orqan yaratmışdır. Buna hesab digər canlıların başa düşə bilməyəcəyi şifrəli bir dillə danışar, çox uzaq məsafələrdən belə bir-birimizi eşidə bilərik. Gördüyün kimi Allahın üstün yaratması biz fillərin də ən gözəl şəkliylə təcəlli edir. Bunları düşünüb hər an Allaha şükür etməyimizin lazım olduğunu heç yaddan çıxartma!

Sedat: İzah etdiklərin üçün təşəkkür edirəm. İndi anamın yanına qayıtmalıyam.

Ana fil: Əlvida Sedat!

Sedat anasının yanına gedərkən, “kim bilir digər heyvanlarda da Allahın necə də böyük möcüzələri var” deyə düşündü.

## QARDAŞININ TOLQAYA ÖYRƏTDİKLƏRİ

**“Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz”. (Nəhl surəsi, 78)**

Tolqa, məktəbdən çıxdıqdan sonra evə getmək üçün avtobus dayanacağına getdi. Dayanacaqda avtobusunu gözləyərkən bir neçə uşağın söhbətini eşitdi. İçlərindən biri davamlı uca səslə danışır, bir tərəfdən də paltarlarını və əlindəki elektronik avtomobili işarə edirdi. Bir az diqqətli qulaq asdıqda, Tolqa danışılanları daha yaxşı başa düşdü.

Uca səslə danışan uşağın adı Candı. Can yoldaşlarına bahalı paltarlarından, son model oyuncaqlarının gözəlliyindən bəhs edirdi. Tolqa evə getdikdə də o uşağın sözlərini ağlından çıxara bilmədi. Böyük qardaşı Saleh, Tolqayı fikirli gördükdə yanına əyləşdi.

Saleh: Nə oldu Tolqa, nə fikirləşirsən belə?

Tolqa: Yolda gələrkən bir uşaq gördüm. Yoldaşlarının yanında geyimlərinin, oyuncaqlarının gözəlliyindən danışırdı. Yoldaşlarının arasında bunlara sahib ola bilməyəcək bəzilərinin olmasına əhəmiyyət vermir, kobud bir rəftar göstərirdi. Onun bu davranışları mənə çox səhv gəldi.

Saleh: Haqlısan Tolqa, onun etdikləri gözəl bir rəftar deyil. Allah hamımıza müxtəlif nemətlər vermişdir. Birinin daha çox əşyaya, gözəlliyə, müvəffəqiyyətə sahib olması o adamın üstünlüyündən qaynaqlanmaz. Allah bunları bizə, bizi sınamaq, bu nemətlər qarşısında necə bir rəftar göstərəcəyimizi görmək üçün vermişdir.

Allahın ən razı qalacağı rəftar, insanın sahib olduğu hər şeyi özünə verənin Allah olduğunu yaddan çıxartmamasıdır. İnsan, Allahın ona verdiyi nemətlərlə öyünməməli, qürrələnməməli və daim təvazökar davranmalıdır. Onsuz da təkkəbbürlənmək şeytanın bir xüsusiyyətidir. Xatırlasan dünən oxuduğumuz ayə bu mövzuyla əlaqədar idi. Ayədə Allah belə buyurur:

**“Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə belə izah edir. Allah heç bir özündən razını, özünü öyəni sevmir”. (Hədid surəsi, 23)**

Tolqa: Yəni, Allahın bizə verdikləriylə qürrələnməməli və itirdiklərimiz qarşısında da kədərli və sıxıntılı bir ruh halına girməməliyik, elə deyilmi qardaşım?

Saleh: Çox doğru Tolqa. Allah hər şeyin sahibidir. Bizə bu nemətlərdən dilədiyi qədər verər. Bunun çox olması da, az olması da dünyadakı imtihanımızın bir hissəsidir.

Tolqa: Allah bir ayədə: **“Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır”. (Taha surəsi, 131)** deyə buyurur. Canın hərəkətləri doğru deyil, amma yoldaşlarının da ona fikir verib, Allahın xoşuna getməyəcək bir rəftar göstərməmələri lazım deyilmi? Belə ki, geyimlərimizi, yeməklərimizi, evimizi, avtomobilimizi bizə verən Allah olduğu halda, qürrələnməmiz bizi çox hörmətdən salar, elə deyilmi?

Saleh: Əlbəttə ki, elədir. Gözəl izah etdin. Bax sənə Qurandan bu mövzuya nümunə olacaq bir hekayə izah edim:

Allah Quranda iki adamı misal çəkir. Adamlardan birinin iki üzüm bağı vardır. Allah hər iki bağı da xurmalar və müxtəlif əkinlərlə əhatə etmişdir. Vaxt gəlmiş və əkinlər böyük bir məhsuldarlıqla öz barını vermişdir. İki bağ arasında bir də çay var. Varlı olan adamın bağı elə əzəmətlidir ki, bağlarından birinin müxtəlif məhsul verən yerləri belə vardır. Bağ sahibi yoldaşıyla sühbət edərkən: **“Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: “Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!” – dedi”. (Kəhf surəsi, 34)** deyərək ona xor baxar. Malıyla göstəriş edərək bağına girər və yoldaşına ətrafı göstərərək belə danışar:

**“O özünə zülm edərək bağına daxil olub dedi: “Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!” (Kəhf surəsi, 35-36)**

Digər adam isə onu belə xəbərdar edər:

**“Bağına girdiyin zaman: “Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!” – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin...” (Kəhf surəsi, 39-40)**

Allah, bu xəbərdarlıqları diqqətə almayan bağ sahibini sonunda cəzalandırar. Bir gecədə bütün məhsullarını yandıran bir külək göndərir.

Səhər qalxdıqda öyündüyü məhsullarını itirdiyini görən bağ sahibi, Allahın sonsuz gücünü və hər şeyi öz nəzarəti altında saxladığını başa düşmüşdür. Biz də bu hekayəni heç yaddan çıxartmadan hərəkət etməliyik.

## ÖMƏR İLƏ PİNQVİN

Ömər, axşam yatmadan əvvəl atasıyla bir sənədli film izləmişdi. Bir çox canlının çətin şərtlərdə həyatlarını necə davam etdirdiklərini görmüş və çox təəccüblənmişdi. Yorğan-döşəyinə yatdıqda da izlədiyi sənədli filmi düşündü. Özünü o canlılarla eyni mühitdə xəyal etdi və birdən özünü qarla örtülmüş bir yerdə gördü. Dənizdə böyük buz hissəcikləri üzürdü. Ətrafda gəzməyə başladı.

PİNQVİN: Xoş gəldin Ömər.

ÖMƏR: Sən kimsən?

PİNQVİN: Mən bir pinqvinəm.

Səsin sahibi sanki üzərinə bir smokin geymiş kimi dayanan bir canlı idi. Ömər onu dərhal xatırladı. Axşam izlədiyi sənədli filmdə pinqvinlərlə əlaqədar bir hissə də var idi.

ÖMƏR: Bəli, sizin həyatınızı televiziyada seyr etmişdim. Bura olduqca soyuqdur, siz heç üşümürsünüzmü?

PİNQVİN: Bura Cənub qütbüdür və burada temperaturun -88 dərəcəyə qədər endiyi kəskin şaxtalar olar. Bu mühit bir çox canlı üçün öldürücü ola bilər. Halbuki biz heç bir çətinliklə qarşılaşmadan həyatımızı davam etdirə bilirik. Bu da ancaq Allahın bizə verdiyi müxtəlif xüsusiyyətlər hesabına mümkün olur.

Dərimizin altındakı qalın yağ təbəqəsi hesabına soyuqdan digər canlılar qədər təsirlənmirik. Həmçinin qış gəldiyi vaxt dəniz kənarından daha cənuba tərəf gedərik.

ÖMƏR: Deməli birlikdə köç edirsiniz, başqa bilmədiyim nə kimi xüsusiyyətləriniz var? Məsələn, izlədiyim sənədli filmdə balalarınızın yumurtadan çıxana qədər yumurtalara çox diqqətlə baxdığınızdan bəhs edilmişdi. Mənə bir az izah edə bilərsənmi?

PİNQVİN: Əlbəttə ki, izah edərəm. Məsələn, bir çox canlının əksinə pinqvinlərdə erkək kürtə yatar. Həm də bu vəzifəni təxminən -30 dərəcədə, 65 gün heç tərpənmədən yerinə yetirərlər. Bu vaxt ana pinqvin də doğulacaq bala üçün uzaqlarda yemək axtarar. Bala doğulduqdan sonra da birinci ay ana və atasının ayaqları arasında keçirər. Çünki səhvən 2 dəqiqə belə buradan çıxması donaraq ölməsinə səbəb olar.

ÖMƏR: Yəni, olduqca diqqətli davranmanız lazımdır.

PİNQVİN: Hər canlıya necə davranmasını Allah öyrətmişdir. Biz də Allahın bizə ilham etdiyi şəkildə hərəkət edərik.

ÖMƏR: Rəbbimiz hər canlının nə vaxt harada məskən salacağını, yeməyini necə tapacağını öyrədib. Siz pinqvinlərin həyatı da buna çox gözəl bir nümunədir.

PİNQVİN: Başqa canlılarda da müxtəlif nümunələr tapa bilərsən. Ailəm məni gözləyir, artıq getməliyəm.

Ömər birdən zəng səsi eşitdi. Səhər olmuşdu və saatı çalırdı. Kiçik səyahətinin gözəl bir yuxu olduğunu başa düşdü.

## ERSİN İLƏ TUTUQUŞU

**"O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır..." (Həşr surəsi, 24)**

Ersin həmişə evdə bir quş saxlamağı arzulamışdı. O gün qapıdan girən atasının əlində böyük bir qəfəs gördükdə gözlərinə inana bilmədi. Qəfəsin pərdəsini qaldırdı: Bu sarı, göy, rəngarəng bir tutuquşu idi! Ersin çox sevinmişdi. Həmin günün axşamı Ersinlə tutuquşu şirin bir söhbətə başladılar:

Ersin: Gözəl tutuquşu səni ən yaxşı şəkildə yemləməyim üçün sənin haqqında hər şeyi öyrənmək istəyirəm. Əvvəlcə mənə ən sevdiyin yeməyi de.

Tutuquşu: Ən sevdiyim yemək çəyirdəkdir!

Ersin: Necə ola bilər, sən necə yeyəcəksən onu?

Tutuquşu: Mən yediklərimi eynilə bir buterbrod kimi iki ayağımla tutaraq yeyə bilərəm. Çəyirdəyin qabığını da dilimlə məharətlə iki yerə bölərəm. Bu yolla qarnımı doyura bilmək mənə Uca Allahın bir lütfü və nemətidir.

Ersin: Çox maraqlanıram, sənin bu rəngarəng inanılmaz gözəllikdəki tüklərin necə əmələ gəldi?

Tutuquşu: Bütün quşlarda olduğu kimi, mənim də zəngin rəng müxtəlifliyim, tüklərimiz içərisində yerləşən və tük ilk əmələ gəlməyə başladığı vaxtda saxlanılan rəng maddəsinin varlığına və ya tüklərin quruluş xüsusiyyəti səbəbiylə işıq hərəkətlərinə bağlı olaraq əmələ gələr. Tüklərimin, köhnəldikdə yeniləriylə əvəz olunan cansız varlıqlar olduğunu bilirdinmi? Hər yeniləndikdə eyni rənglər təkrar çıxar. Bu Allahın yaratmasındakı qüsursuzluğun dəlillərindən biridir.

Ersin: Bu həqiqətən də möhtəşəmdir! Bəs eşitdiyin səsləri təqlid edə bilirsən? Bu necə olur?

Tutuquşu: Mən eşitdiyim bu səsləri yalnız təqlid edə bilirəm, mənalarını bilmirəm. Bu da, şübhəsiz ki, Allahın diləməsiylədir. Yoxsa mənim kimi heç bir ağıla və iradəyə sahib olmayan bir varlıq, necə səs təqlidi qabiliyyəti inkişaf etdirə bilər ki? Mənim kimi həm danışa bilən, həm rəngarəng bir quşu dizayn etməyə, şübhəsiz ki, Uca Rəbbimdən başqa heç kimin gücü çatmaz. O, bənzərsiz və qüsursuz var edəndir.

Ersin: Sənə baxanda Uca Allaha olan heyranlığım qat-qat artır. Burada ən gözəl şəkildə qalman üçün mən də əlimdən gələni edəcəyəm. Evimizə təkrar xoş gəldin gözəl tutuquşu!

Tutuquşu: Yaddan çıxartma ki, Uca Rəbbimizin bütün bu qüsursuz kainatı yaratması qarşılığında edəcəyimiz ən gözəl şey, gördüyümüz hər gözəllikdə Allahın böyüklüyünü xatırlayıb, Ona şükür etmək və Onu ağlımızdan heç çıxarmamaqdır.

## HƏR ŞEYDƏ BiR XEYİR VARDIR

Əli, ibtidai məktəbdə oxuyan çox müvəffəqiyyətli bir şagird idi. Müəllimlər və yoldaşları tərəfindən çox sevilirdi. Həmişə intizamlı idi. Ana, atasına və böyüklərinə qarşı hörmət edən bir uşaq idi. Ancaq Əli, yaşadığı hadisələr qarşısında xeyli həyəcanlanır, əhəmiyyətsiz şeylər üçün narahat olurdu. Məsələn, məktəbdə imtahan verəcəkləri vaxt dərsini oxumuş olmağına baxmayaraq içində qorxu hissi keçirir "ya pis qiymət alsam?" deyə düşünərək özünü kədərləndirirdi. Çox vaxt bu narahatlığı üzündən diqqəti dağılır, hətta bildiyi bir suala səhv cavab verdiyi də olurdu. Əli edə bilmədiyi bir şey olduqda və ya olmasını istədiyi bir şey olmadıqda dərhal kədərlənir və ümidsizliyə qapılır, niyə edə bilmədiyini, niyə olmadığını düşünərək öz-özünə əsəbləşirdi.

Əli həmin gün məktəbdən evə qayıtdıqda çox sevincli və həmişəki kimi həyəcanlı idi. Anası mətbəxdə yemək hazırlayırdı. Əli məktəbdə olanları dərhal anasına izah etməyə başladı:

**Əli:** Anacan, həftə sonunda məktəbimizin təşkil etdiyi gəzintiyə gedəcəyik. Orada gözəl yeməklər yeyəcək, top oynayacaq, gəzəcək, mahnılar oxuyub oyun oynayacağıq. Necə də gözəl elə deyilmi?

**Ana:** Bəli Əli, həqiqətən çox gözəl bir xəbərmiş. Dur indi əllərini yu və tapşırıqlarını yerinə yetirməyə başla görək.

Əli anasının sözünü eşitdi. Əlini-üzünü yudu, formasını çıxartdı və tapşırıqlarını yerinə yetirməyə başladı. Ancaq həyəcanı hələ də keçməmişdi. Gəzintidə nə qədər çox əylənəcəklərini düşünürdü. Bir an ağlına bir şey gəldi. İçindən "ya həftə sonu gəlmədən xəstələnsəm? Onda gəzintiyə gedə bilmərəm. Yoldaşlarım oyun oynadıqları halda mən evdə xəstə halda yatmaq məcburiyyətində qalaram" deyə düşündü. Bir an içinə bir sıxıntı düşdü. Bütün sevinci qaçmışdı. Tapşırıqlarını yerinə yetirərkən bir tərəfdən də bunu düşünməyə başladı.

Axşam yeməyinin vaxtı gəldikdə Əlinin atası da evə gəlmişdi. Anası Əlini yeməyə çağırdı. Hamısı birlikdə süfrəyə oturdular. Əli, ağlına gələn pis düşüncə üzündən çox səssiz və kefsizdi. Ondakı bu dəyişiklik anasını çox təəccübləndirdi. Əlinin bu durğun halı atasının da diqqətini çəkmişdi. Həmişə olduğu kimi söhbət etməyə başladılar.

**Ata:** Əli bu gün məktəbdə nələr etdin danış görək!

**Əli:** Yeni məlumatlar öyrəndik atacan. Riyaziyyat dərsində lövhəyə çıxdım və müəllimin soruşduğu sualı düzgün şəkildə həll etdim.

**Ana:** Əli, bu gün məktəbdə aldığın gözəl xəbəri atana da deməyəcəksənmi?

**Əli:** Həftə sonu gəzintiyə gedəcəyik.

**Ata:** Əli bu çox gözəl bir xəbərdir, amma deyəsən sən bu xəbərə çox sevinməyibsən?

**Ana:** Əslində məktəbdən gəldikdə çox sevincli idi, niyə kədərli görünürsən?

**Əli:** Bəli çox sevincliydim, amma ağlıma gələn bir fikir üzündən ürəyim sıxıldı.

**Ata:** Əli niyə ürəyin sıxıldı?

**Əli:** Ya həftə sonuna qədər xəstələnib də gəzintiyə gedə bilməsəm, onda çox kədərlənərəm.

**Ana:** Əli indi belə bir şey yoxdur və daha sonra olub ola bilməyəcəyini də indidən bilmirik. Ya olsa deyə əhəmiyyətsiz bir şeyə görə kədərlənməyin doğrudurmu?

**Ata:** Bax Əli. Şeytan ağlına belə pis fikirlər gətirərək, əhəmiyyətsiz şeylərə görə narahat olmağına səbəb olar. Buna vəsvəsəyə düşmək deyilir. İnsanın ağlına gələn bütün pis fikirlər, ürəyində hiss etdiyi sıxıntılar, şeytanın insanlara pıçıldadığı vəsvəsələrdir. Belə bir vəziyyətdə nə etməyimiz lazım olduğunu Uca Allah Quranda bizə belə bildirmişdir:

**“Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir”. (Əraf surəsi, 200)**

**Ana:** Əli sən də ağlına belə pis fikirlər gəldikdə dərhal Allaha sığın və Ona dua et.

**Ata:** Həyatımızda başımıza gələn hər hadisə Allahın taleyimizdə əvvəldən təyin etdiyi hadisələrdir. Allah bizim üçün hər hadisədə ən xeyirlisini diləmişdir. Əgər sən gəzintiyə gedə bilməsən mütləq bu daha xeyirlidir. Bəzi insanlar hər şeydə bir xeyir olduğunu unudub, başlarına gələn bir hadisə qarşısında kədərlənirlər. Halbuki Allah o adamı bəlkə də daha pis bir hadisədən qorumuşdur. Ancaq belə düşünmədikləri üçün həmişə kədər və sıxıntı içində yaşayarlar.

**Əli:** Bəli çox yaxşı başa düşdüm. Bundan sonra ağlıma gələn pis düşüncələrdən dərhal Allaha sığınacaq və mənə hər şeyin ən xeyirlisini verdiyi üçün Allaha şükür edəcəyəm.

# ƏHMƏD İLƏ ŞƏN ÖRDƏK

Əhməd həftə sonu ailəsi ilə birlikdə babasını görməyə getmişdi. Axşam yeməyinə qədər babası Əhmədi həmişəki kimi parka apardı. Orada Əhmədi bir sürpriz gözləyirdi. Parka çatdıqda Əhməd hovuzda üzən ördəkləri gördükdə çox sevindi. Babası da Əhmədin ördəkləri çox sevdiyini bildiyi üçün yanında ördəklərin yeyə biləcəyi yeməklər gətirmişdi. Onları Əhmədə verdi və oradakı bir oturacaqda əyləşdi. Əhməd dərhal ördəklərin yanına qaçdı.

Əhməd: Salam mənim adım Əhməddir. Sizə yemək gətirdim.

Ördək: Salam Əhməd, çox təşəkkür edirik.

Əhməd: Maraqlıdır, görəsən sizə burada yemək verməsələrdi ya da insanların olmadığı başqa bir yerdə yaşasaydınız necə qidalana bilərdiniz?

Ördək: Biz ördəklər təbiətdəki həyatımızda sudan çox çıxmarıq. Suda olanlarla qidalanarıq.

Əhməd: Amma mən ördəklərin üzdüyü sularda da yeməyə heç bir şey görə bilmirəm.

Ördək: Bizlər qidamızı sudan müxtəlif yollarla alarıq. Bəzi növlərimiz üzərkən dibə getmədən böcəklər və bitkilərlə qidalanar. Bəzi növlərimiz tez-tez başımızı və bədənimizin ön hissəsini suya salaraq quyruğumuz dik bir vəziyyətdə qida axtarırıq. Bəzi növlərimiz isə tamamilə suya girərək qidalarımızın hamısını suyun altında axtarırıq.

Əhməd: Yaxşı bəs niyə davamlı suda qalırsınız? Niyə quruda da yerimirsiniz?

Ördək: Çünki ayaq barmaqlarımızın arasındakı pərdələr suya girməyimizə və sürətlə üzməyimizə kömək edər, amma quruda yeriməyimizi çətinləşdirər.

Əhməd: Mən dənizə girdiyim vaxt suyun üstündə qalmaq üçün davamlı hərəkət etmək məcburiyyətində qalıram. Buna görə də suyun üstündə asanlıqla qala bilmək üçün dənizə bubliklə girirəm. Sizlər necə bu qədər uzun müddət suyun üstündə qala bilirsiniz?

Ördək: Dənizə bubliklə girdiyin vaxt necə hərəkət etmədən suyun üstündə qala bilirsənsə, bizim də bədənimizin içində daşıdığımız hava suyun üstündə qala bilməyimizi təmin edir.

Əhməd: Amma mən üzərimdə bublik olduğu halda suyun dibinə baş vura bilmirəm. Bəs siz necə girə bilərsiniz?

Ördək: Bizim bədənimizdə kiçik şarlara oxşar hava kisələri var. Bu kisələr hava ilə dolduqda suyun üstündə qala bilirik. Suyun dibinə baş vurmaq istədikdə isə hava kisələrindəki havanı çölə çıxardırıq. Bədənimizin içində daha az hava qaldığı üçün asanlıqla suyun içinə bata bilirik.

Əhməd: Həm suyun üstündə qala bilir, həm suya baş vura bilir, həm də çox gözəl üzə bilirsiniz.

Ördək: Ayaq barmaqlarımızın arasındakı pərdələr hesabına üzə bilirik. Ayaqlarımızı suyun içində irəli-geri hərəkət etdirdikdə bu pərdələr yaxşı genişlənir və suyu daha güclü itələməyimizi təmin edir.

Əhməd: Bu eynilə yayda böyüklərin dənizə girərkən daha asan və sürətlə üzmək üçün ayaqlarına taxdıqları palitralar kimidir.

Ördək: Bəli Əhməd. Əgər sizlərin ayaqları elə olsaydı heç asanlıqla yeriyə bilməzdiniz. Amma biz su quşları olduğumuz üçün ayaqlarımızın bu forması hesabına çox rahat üzə bilir, qidalana bilirik.

Əhməd: Bütün ördəklər bir-birinə çox bənzəyir, amma aranızda nə kimi fərqlər var?

Ördək: Bizlər bir-birimizə çox bənzəyirik, amma, əlbəttə ki, ördək növləri arasında müxtəlifliklər də vardır. Erkək ördəklər, dişi ördəklərə nisbətən daha parlaq tüklərə sahibdirlər. Yuvasında kürtə yatmış dişilər üçün bu əhəmiyyətli bir qorumadır. Çünki solğun rənglərinə görə düşmənləri onları görmədiyi üçün dişilər yuvalarında daha təhlükəsiz vəziyyətdə olarlar. Dişi ördəklərin yaşadıqları yerə uyğun solğun rəngləri, onların yaxın məsafədən belə görünmələrini olduqca çətinləşdirir.

Əhməd: Bəs yuvalarına bir düşmən yaxınlaşarsa onda nə baş verər?

Ördək: Erkək ördəklər yuvadakı dişini qorumaq üçün parlaq rəngli tüklərindən istifadə edərək düşmənlərin diqqətini özlərinə çəkərlər. Bir düşmən yuvaya yaxınlaşdıqda erkək dərhal uçaraq xeyli səs-küy salar və düşməni yuvadan uzaqlaşdırmaq üçün əlindən gəldiyi qədər səy göstərər.

Elə həmin vaxt Əhməd suda üzən ördək balalarını gördü. Balaca olmalarına baxmayaraq balaların suda üzə bilmələrinə çox təəccübləndi və dərhal soruşdu:

Əhməd: Bu kiçik balalarınız necə bu qədər qısa vaxt ərzində üzməyi öyrənə bilirlər?

Ördək: Balalar yumurtadan çıxdıqdan bir neçə saat sonra suya qaçıb üzməyə və öz başlarına qidalanmağa başlayarlar.

Əhməd özünü doğulduqdan bir neçə saat sonra suya ötürsələrdi, nə baş verərdi deyə düşündü. Əlbəttə ki, üzə bilməz, suyu udub boğulardı. Uca Allahın ördəkləri suda yaşamaları, üzə bilmələri, qidalana bilmək üçün qüsursuz bir şəkildə yaratdığını düşündü. Elə həmin vaxt babası da oturduğu oturacaqdan qalxmış, Əhmədin yanına gəlmişdi.

Əhməd: Babacan ördəklər necə də gözəl üzürlər, elə deyilmi? Həm də çox sevimlidirlər.

Baba: Bəli Əhməd. Tək bir xüsusiyyətləri belə bizə Allahın hər varlığı nə qədər qüsursuz bir şəkildə yaratdığını göstərir. Ördəklərin həmçinin uça bildiklərini də bilirdinmi? Ördəklər uçarkən vəhşi heyvanlara yem olmamaq üçün dayanmadan istiqamət dəyişdirərlər.

Əhməd: Babacan ördəklər bunun üçün istiqamət dəyişdirmələrinin lazım gəldiyini hardan bilirlər?

Baba: Əlbəttə ki, bu, Allahın digər canlılara verdiyi xüsusiyyətlər kimi, sevimli ördəklərin özlərini qorumaları üçün vermiş olduğu bir xüsusiyyətdir. Allah istədiyini yaradır. Bununla əlaqədar Qurandakı ayələrdən biri belədir:

**“Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir”. (Nur surəsi, 45)**

Tez elə artıq yemək vaxtı xeyli yaxınlaşdı yavaş-yavaş evə qayıtsaq yaxşı olar.

Əhməd: Yaxşı babacan mən də sənə yolda ördəklər haqqında öyrəndiklərimi izah edəcəyəm.

Baba: Eləmi? Görək sən bu məlumatları hardan öyrəndin?

Əhməd sudakı ördəklərə göz vurdu və onlarla vidalaşdı:

Əhməd: Salamat qalın! Sevimli ördəklər!

Əhməd ördəklərdən ayrılarkən babasının əlindən tutdu, birlikdə həm evə tərəf getdilər, həm də Allahın hər şeyi ən mükəmməl şəkildə yaratdığını danışaraq Allaha şükür etdilər.

## ÖRDƏKLƏR

Ördəklər uçarkən eynilə hepardlar kimi avtomobillərin sürətlərinə çata bilərlər. Həmçinin yırtıcı heyvanlara yem olmamaq üçün də uçduqları halda, davamlı istiqamətlərini dəyişdirərlər. Suya baş vurmaları lazım olduqda bunu o qədər sürətli bir şəkildə edərlər ki, ovçular onları ovlamaqda çox çətinlik çəkərlər.

## UZUN QUYRUQLU SEVİMLİ DƏLƏLƏR

Fateh və Erdəm çox yaxşı yola gedən iki yoldaş idi. Heyvanların həyatlarıyla əlaqədar yeni bir kitab oxumuş və çox təsirlənmişdilər. Bu heyvanları yaxından tanımaq, kim bilir nə qədər də həyəcanlı olardı. Axşam ailələriylə danışdılar və həftə sonu meşəyə gəzintiyə getmək üçün onları razı saldılar. Yol boyu bir-birlərinə orada görə biləcəkləri canlılar haqqında suallar verdilər. Avtomobildən enər-enməz ağacların arasında qaçmağa başladılar. Ailələri oturacaqlara oturmuş söhbət edirdilər. Fateh və Erdəm ətrafı dolanmaq üçün izn istədilər. Bir neçə heyvan görə bilmək üçün səbirsizliklə gözləyirlərdi.

Bir az getdikdən sonra budaqların arasında bir tərpəniş hiss etdilər.

Fateh: Erdəm, bax budur, yəqin ki, orda bir dələ var gördünmü?

Erdəm: Gəl, bir az daha yaxından baxaq.

Fateh: Görəsən niyə bu qədər uzun bir quyruğu var?

Dələ: İkiniz də çox həvəskar uşaqlara oxşayırsınız. Öyrənmək istədiklərinizi sizə izah edə bilərəm.

Fateh: Bəli çox istəyirik, izah edərsənmi?

Dələ: Bir az əvvəl quyruğumun niyə uzun olduğuyla maraqlanmışdınız. Ağacların üstündə çox müxtəlif hərəkətlər edə bilərəm. Məsələn, iti dırnaqlarım hesabına asanlıqla ağaclara dırmaşa bilərəm. Həmçinin bir budağın üstündə qaça bilərəm, başıaşağı sallana bilərəm, hətta bu şəkildə yeriyə bilərəm. Xüsusilə də “boz dələlər” olaraq tanınan qohumlarımız bir ağacın ən ucundakı budağından 4 metr uzaqdakı başqa bir ağacın budağına asanlıqla tullana bilərik. Havada sanki uçurmuş kimi sıçrayarkən, qollarını və ayaqlarını aralayaraq bir planer kimi hərəkət edirlər. Bu vaxtda yastılaşan quyruqları isə həm tarazlıqlarını təmin edər, həm də istiqamətlərini tənzim edən bir sükan funksiyası yerinə yetirər.

Erdəm: Bir kitabda bəzi dələlərin uça bildiklərini oxumuşdum. Bəs uçan dələlərin təkcə quyruqlarının uzun olması kifayət edirmi?

Dələ: Bəli, Avstraliyada yaşayan və boyları 45 sm ilə 90 sm arasında dəyişən bəzi dələ növləri uça bilirlər. Əslində etdikləri tam olaraq uçmaq deyil. Bir ağacdan digərinə uzun məsafəli sıçrayışlar edərək hərəkət edərlər. Ağaclar arasında bir planer kimi hərəkət edən bu canlıların qanadları yoxdur, amma uçma pərdələri vardır. Məsələn, “şəkər uçan sincablar”nın uçma pərdəsi, ön ayaqlardan arxa ayaqlara tərəf uzanar. Uçan dələ, bir ağacın gövdəsindən sıçrayar və dartılmış dərinin planerə bənzəyən

təsiriylə bir dəfə də orta hesabla 30 metrlik bir məsafə qət edə bilər. Hətta bəzən arxa-arxaya 6 dəfə sürüşməklə 530 metrlik bir məsafə qət edə bildikləri müşahidə edilmişdir.

Fateh: Bu qədər uzun məsafələri tullanarkən ağaclar arasındakı məsafələri necə hesablayırlar. Doğru yerə qona bilmələri üçün özlərini çox yaxşı tənzimləmələrinin lazım olduğunu fikirləşirəm. Kiçik bir səhv düşməyinizə səbəb ola bilər.

Dələ: Çox düzdür. Tullanarkən incə budaqları hədəfləyib, tam üstündən yapışa bilmək üçün çox diqqətli hərəkət etməliyik. Bunun üçün arxa ayaqlarımız, məsafələri çox yaxşı tənzimləyən iti gözlərimiz, güclü pəncələrimiz və tarazlıq yaratmağımıza kömək edən quyruğumuzdan istifadə edərik. Bizə bu xüsusiyyətləri verən də, onlardan necə istifadə edəcəyimizi öyrədən də Uca Rəbbimizdir. Yoxsa bizim, ailə tərəfindən əllərimizə cədvəlləri alıb, ağacların hündürlüklərini, budaqların arasındakı məsafələri ölçməyimiz qeyri-mümkündür.

Erdəm: Quyruğunuzun başqa faydaları da varmı?

Fateh: Mən sənədli bir filmdə izləmişdim. Kiçik boylu heyvanlar hərəkət etmədikləri vaxt istilik itirirlərmiş. Soyuq havalarda donma təhlükəsiylə üz-üzə gəlirlərmiş. Xüsusilə də yuxuda olduqları vaxtlarda bu təhlükə daha da artarmış. Lakin, Allah hər canlı növündə olduğu kimi dələlərin də mənfi kənar şərtlərdən təsirlənməmək üçün qorunma üsulları yaratmışdır. Bunun üçün dələlər qalın kürkə bənzəyən quyruqlarını bədənlərinin ətrafına dolayıb, bir top kimi qıvrılaraq yuxuya gedirlərmiş. Bir palto kimi qalın olan quyruqları beləcə soyuq havalarda yatdıqlarında onları donmaqdan xilas edirmiş.

Dələ: Bəli, həqiqətən də soyuq havalarda quyruğumuz bizi isindirər. Amma bütün bunlardan başqa quyruğumuzun bir faydası daha vardır. Bir çox canlıda olduğu kimi biz dələlər arasında da müxtəlif xəbərləşmə üsulları vardır. Məsələn "qırmızı sincablar" düşmən gördükdə quyruqlarını yelləyər və həyəcanlı səslər çıxararlar.

Erdəm: Nə qədər çox qoz toplayıbsınız. Yəqin ki, acmısınız...

Dələ: Qışda yemək tapmaqda çətinlik çəkdiyimiz üçün yay aylarında yemək toplayıb, qışa hazırlıq görərik. Yeməklərimizi tədarük edərkən çox diqqət yetirməyimiz lazımdır. Meyvələr və ətlər qısa vaxt ərzində xarab olacağı üçün onları tədarük etmərik. Qışda ac qalmamaq üçün yalnız qoz, fındıq, qoza kimi tutumlu yeməkləri toplamalıyıq. Məhz bu qozları da qışda yemək üçün saxlayacağıq.

Erdəm: Allah bütün canlılara yeməklərini necə tapacaqlarını və saxlayacaqlarını öyrədən, yaratdığı hər canlının ruzisini də verəndir. Allahın sifətlərindən biri də "ruzi verən", yəni "yaratdığı hər canlıya yemək verən"dir. Allah nə qədər lütf sahibi və mərhəmətli olduğunu Quranda bizlərə bir ayədə belə bildirir:

**"Neçə-neçə canlılar vardır ki, ruzisini öz yanında daşıya bilmir. Onların da, sizin də ruzinizi Allah verir. O, Eşidəndir, Biləndir". (Ənkəbut surəsi, 60)**

Dələ: Allah yaratdığı hər canlıya yaşadığı mühitə uyğun xüsusiyyətlər vermişdir. Yeməkləri tapıb saxlamağımız yetərli olmaz, qış gəldikdə onları saxladığımız yeri də tapmalıyıq. Bunu da Rəbbimizin bizə verdiyi mükəmməl qoxubilmə duyğusundan istifadə edərək taparıq. Belə ki, 30 santimetrlik qarın altında gizlənmiş fındıqların iyini də hiss edə bilərik.

Topladığımız yeməkləri birdən çox yerdə saxlayar. Lakin çoxunun yerini də sonradan yaddan çıxardarıq. Bunun da Allah qatında təyin olunmuş bir səbəbi var. Çünki bizim yer altında saxladığımız yemişlər vaxt ərzində meşənin içində cücərib inkişaf edəcək və təkrar yeni ağaclar əmələ gətirəcəklər.

Fateh: Qoz, fındıq, şabalıd bunlar qabığı çox sərt olan qidalardır. Biz bunları yemək üçün dəmirdən hazırlanmış sındırıcı alətlərdən istifadə edirik. Siz bir alət olmadan bunları necə qıra bilirsiniz?

Dələ: Bizim bir insanın əsla sahib ola bilməyəcəyi itilikdə və möhkəmlikdə dişlərimiz var. Ağzımızın ön tərəfində, sərt hissəciklərin qırılmasını təmin edən kəsici dişlər, arxa uzun boşluqda isə azı dişlərimiz var. Ağzımızdakı bu iti dişlərin hesabına nə qədər sərt olursa olsun istədiyimiz yemişin qabığını sındıra bilirik.

Erdəm: Bəs dişləriniz ziyan görmürmü?

Dələ: Hər şeyi bir ahəng içində yaradan Rəbbimizin üstün sənətini burada da görə bilərsiniz. Bizim dişlərimiz qırılıb, yeyilsə belə yerinə dərhal yenisi çıxar. Yeyilən dişlərimiz davamlı uzanaraq altdan yenilənir. Allah bu xüsusiyyəti bizim kimi yeməklərini gəmirmək məcburiyyətində qalan bütün canlılara vermişdir.

Fateh: Allah yaratdığı canlılardakı gözəllik və qüsursuz strukturlarla əlaqədar olaraq Quranda belə bildirmişdir:

**“Sizin yaradılışınızda və Allahın yer üzünə yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır”. (Casiyə surəsi, 4)**

Erdəm: Allahın hər şeyi hər an nəzarəti altında saxladığını yaddan çıxartmamalıyıq. Bizə verdiyi hər nemət üçün Ona şükür etməli, sevdiyi qullarından olmaq üçün dua edib, Ondan bağışlanma diləməliyik.

Fateh: Bəli düz deyirsən. Erdəm çox gec oldu, artıq geri qayıdaq. Sevimli dələ bizə izah etdiklərin üçün təşəkkür edirəm.

Dələ: Əlvida kiçik dostlarım.

## GÖZƏL SÖZƏ UYMANIN ƏHƏMİYYƏTİ

Şener sevimli, gözəl əxlaqlı və çox çalışqan bir uşaq idi. Atasının işinə görə başqa bir şəhərə köçmüşdülər. Buna görə Şener, çox sevdiyi yoldaşlarından ayrılmaq məcburiyyətində qalmışdı.

Yeni evlərinə köçdükdən bir müddət sonra binalarında yaşayan qonşuları, Şenerin yanına qonaq gəldilər. Şener çox şad oldu, çünki binalarında onun yaşında bir çox uşaq var idi. Şener yeni tanış olduğu yoldaşlarını çox sevdi və vaxt ərzində yoldaşlarıyla mehriban oldu. Ancaq aralarından Gökhan adında yaşca digərlərindən kiçik olan bir uşaq həmişə oynadıqları oyunları pozur, həmişə öz istədiyi oyunların oynanmasını istəyir, istədiyi bir şey baş tutmadıqda isə onlardan küsürdü.

Bir gün bağçada bütün uşaqlar toplanıb oynadıqları vaxt, Gökhan yanlarına gəldi. Uşaqlar o anda Şenerin yeni alınmış oyuncağı ilə oynayırdılar. Gökhanın gəlməsi bütün uşaqları narahat etdi. Çünki

Gökhan oyunlarına qoşulanda mütləq bir mübahisə yaranacağını bilirdilər. Buna görə də uşaqlar Gökhanı bu dəfə aralarına almadılar. Buna çox əsəbləşən Gökhan da Şenerin yeni oyuncağını aldı və yerə çırparaq qırdı. Buna çox kədərlənən Şener və yoldaşları, Gökhanla mübahisə etməyə başladılar. Uşaqların səsini eşidən Saleh baba dərhal pəncərəyə gedib çölə baxdı. Saleh Baba uşaqları çox sevirdi, onlarla həmişə maraqlanır, tez-tez uşaqlarla Allahın varlığı, verdiyi nemətlər, Allahın yerinə yetrilməsini əmr etdiyi ibadətlər kimi mövzularda söhbət edirdi. Uşaqların mübahisə etdiklərini gördükdə dərhal yanlarına gəldi. Gökhan ağlayırdı. Uşaqlar baş verənləri Saleh babaya danışdılar, sonra hamısı birlikdə bağçada oturub söhbət etməyə başladılar.

Şener: Saleh baba. Mən və yoldaşlarım həmişə çox yaxşı yola gedir, bir-birimizlə mübahisə etmədən oyunlarımızı oynayırıq. Amma Gökhan həmişə oyunumuzu pozur, biz də artıq onunla yoldaş olmaq istəmirik.

Gökhan: Amma onlar mənim istədiyim şeyləri etmirlər.

Saleh baba: Əziz Uşaqlar! Hamımız hər an hüzurlu olmaq, əmin-amanlıq içində yaşamaq, yoldaşlıq, dostluq və sevincin olduğu yerlərdə olmaq istəyərik. Ancaq, bunların olması üçün yalnız istəmək kifayət etməz. Həmçinin bunları həmişə qarşı tərəfdən gözləmək də olmaz. Hüzurlu, etibarlı mühitlər təmin etmək, gözəl dostluqlar qurmaq xüsusi bir səy və fədakarlıq tələb edir. Əgər hər kəs, yalnız öz istəyinin olmasını istəyər, öz rahatlığını düşünər, fədakarlıq etməzsə, insanlar arasında döyüşlər və narahatlıqlar yaşanar. Ancaq Allahdan qorxan möminlər fərqli davranırlar. Onlar, həm fədakar, həm bağışlayan, həm də səbirlidirlər. Özlərinə haqsızlıq edildikdə belə, bağışlayıcı davranaraq, mühitin hüzurunu və təhlükəsizliyini, insanların sevincini öz istəklərindən üstün tutar, ən gözəl rəftarı nümayiş etdirərlər. Bu, Allahın möminlərə əmr etdiyi üstün bir əxlaq xüsusiyyətidir.

Şener: Bəs Saleh baba qarşımıza bizə pis sözlər deyən, düşməncə rəftarlar göstərən biri çıxdıqda nə etməliyik?

Saleh baba: Əlbəttə ki, biz Allahın əmr etdiyi şəkildə davranmalıyıq. Bunu Uca Allah bizə Quranı Kərimdə Fussilət surəsinin 34-cü ayəsində belə bildirmişdir: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar".**

Uşaqlar Saleh babaya təşəkkür etdilər və bundan sonra bir-birlərinə ən gözəl şəkildə davranacaqlarına söz verdilər.

## MÖMiNLƏRİN TƏVAZÖKARLIĞI NECƏ OLUR?

Allah Quranda möminlərə təvazökar olmalarını əmr etmişdir.

Möminlər, Allahın hər şeyi yaratdığını, hər şeyin tək sahibinin Allah olduğunu və insanlara bütün nemətləri verənin O olduğunu bilən insanlardır. Buna görə də nə qədər gözəl, nə qədər zəngin, nə qədər ağıllı, nə qədər etibarlı olurlarsa olsunlar təkəbbürlənməzlər. Allah möminlərin təvazökar olduqlarını Quranda belə bildirmişdir:

**“Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: “Salam!” – deyərlər” (Furqan surəsi, 63)**

Bu əxlaqlarının nəticəsində Allah möminləri müjdələmişdir:

**“...Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver”. (Həcc surəsi, 34)**

## ALLAHI XATIRLAMAQ NECƏ OLAR?

Möminlər, Allahın hər an özlərini gördüyünü və eşitdiyini, qarşılaşdıqları hər hadisəni Allahın yaratdığını bilir. Həyatlarının hər anında öz özlərinə Allahı düşünüb xatırlayarlar. Allahı xatırlamaq, qarşılaşılan hər şeyi, meydana gələn hər hadisəni Allahın yaratdığını bilmək, Allah mənə bununla nə göstərmək istəyir deyə düşünmək, Allahın yaratmağındakı hikmətləri başa düşməyə çalışmaq, hər an Allahın ucalığını qavraya bilmək üçün səy göstərmək və bütün bunları digər insanlara da izah etməklə olar. Möminlərin hər an Allahı xatırladıqları Quranda belə bildirir:

**“O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!”. (Ali İmran surəsi, 191)**

## MÖMİNLƏRİN TƏMİZLİYİ

Əli o gün çox həyəcanlı idi. Müəllimləri onlara “təmiz olmaq” mövzusunda bir tapşırıq vermişdi. Bu mövzu haqqında istədikləri mənbələrdən məlumatlar toplayıb, sonra da onları bir kağıza yazaraq sinifdə izah etmələrini istəmişdi. Əli bu günə qədər təmizlik mövzusunda bildiklərini yerinə yetirirdi. Amma bunları necə başa salacağına bir cür qərar verə bilmirdi. Əlbəttə ki, bu mövzu haqqında bilmədiyi daha bir çox şey vardı. Əlinin ağlına gözəl bir fikir gəldi. Müəllimləri hər cür qaynaqdan məlumat toplaya biləcəklərini dediyinə görə binalarında yaşayan Əhməd babadan çox yaxşı məlumatlar ala bilərdi. Dərhal dəftərini və qələmini götürdü, anasından izn istəyərək Əhməd Babanın evinə getdi. Əhməd Baba, Əlinin bu davranışından ötrü çox şad oldu. Birlikdə söhbət etməyə başladılar:

Əli: Əhməd baba. Hər insan təmiz olmalıdır, amma məktəbdəki bəzi yoldaşlarımın səhər üzlərini belə yumadan məktəbə gəldiklərini görürəm.

Əhməd baba: Əli, Allah Quranda möminlərə təmiz olmalarını, pislikdən uzaqlaşmalarını əmr etmişdir. Quran əxlaqını yaşamayan insanlar hər mövzuda olduğu kimi təmizlik mövzusunda da Quran əxlaqını yaşamadıqları üçün bu kimi pis vəziyyətlərə düşərlər. Möminlər fiziki olaraq tərtəmiz insanlardır. Bədənləri, yedikləri yeməklər, geydikləri geyimlər, yaşadıqları mühitlər həmişə təmizliyi və səliqəsiylə diqqətə çarpar. Olduqları hər yeri Quranda təsvir edilən, tərtəmiz cənnət mühitlərinə bənzətməyə çalışırlar. Allah möminlərin təmizlik anlayışının necə olmasının lazım olduğunu Quranda bu ayələrlə bildirmişdir:

**“…Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!...”. (Həcc surəsi, 26)**

**“Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin...” (Bəqərə surəsi, 172)**

**“Geyimini təmiz saxla! Pis şeyləri tərk et!”. (Müddəssir surəsi, 4-5)**

Əli: Bəs Allahın Quranda bildirdiyi təmizliyi yaşaya bilmək üçün möminlərin nə etmələri lazımdır?

Əhməd baba: Allah insanların təmizlənməsi üçün su yaratmışdır. Su, böyük bir nemətdir, insanların Allaha şükür etməsi üçün bir vəsilədir. Səhər duran kimi ilk növbədə əl-üzünü yumaq, yuyunub günə tərtəmiz başlamaq lazımdır. Allah insanlara təmizlənmələri üçün göydən yağmur endirdiyini Quranda belə bildirmişdir:

**“...göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin”. (Ənfal surəsi, 11)**

Əli: Əhməd baba, bu ayədən şeytanın insanlara pislik verdiyini başa düşə bilərik, elə deyilmi? Yəni, pis olan insanlar şeytana uymuş olurlar.

Əhməd baba: Allah bu ayədə, şeytanın pisliyi gözəl göstərməyə və təmizlənməyə mane olmağa çalışdığını bildirərək insanları xəbərdar etmişdir. İnsanı Allahın yolundan sapdırmağa çalışan şeytan, təmizlənmə mövzusunda da insana həmişə təlqinlər verər. Məsələn, yeməklərdən sonra diş fırçalamağı ya da mümkün olduğu qədər müntəzəm şəkildə yuyunmağı insanlara çətin göstərərək təxirə salmağa, daha sonra da tamamilə unutdurmağa çalışır. Bir neçə dəfə bu mövzuda zəiflik göstərmək çox əhəmiyyətli nəticələr doğurmasa da, vaxt ərzində insanın görünüşündə və sağlamlığında problemlərə səbəb olar. Şeytanın məqsədi də budur. Böyük bir kin duyduğu və cəhənnəmə sürükləməyə çalışdığı insanın pislik içində yaşaması, dərisinin çirklənməsi, dişlərinin çürüməsi, pis bir görünüşə sahib olması və sağlamlığının pozulması da onun ən böyük arzusudur. Ancaq Quran əxlaqını yaşayan bir insan şeytanın bu təlqinlərinə qarşı ayıq-sayıq və diqqətlidir. Təmizlənmə mövzusunda da ən kiçik bir zəiflik göstərməz. İmkan olduğu qədər bütün hallarda təmizliyinə diqqət yetirər.

Əli: İnsanların bəziləri təmiz və səliqəli olsalar da həmişə eyni şəkildə görünmürlər. Məsələn, yalnız bayramlarda və ya müəyyən günlərdə təmiz və səliqəli, başqa vaxtlarda isə baxımsız görünürlər. Onların təmizlik anlayışları necədir?

Əhməd baba: Quran əxlaqını yaşamadıqları halda bəzi insanlar da təmizliyə çox diqqət yetirər və əhəmiyyət verərlər. Ancaq, məqsədləri və niyyətlərinə görə iman edənlərdən qəti olaraq fərqlənərlər. Bu insanların məqsədi, insanlar tərəfindən tənqid olunmamaq, onlara gözəl görünmək, pis qoxmamaqdır. Təmizlənərkən Allahın razılığını düşünmədikləri üçün tək olduqda ya da əhəmiyyət vermədikləri insanların yanında olanda görünüşlərinə və təmizliklərinə diqqət yetirməzlər. Ancaq bir mömin, insanlar tərəfindən bəyənilmək üçün deyil, Allahın razılığını qazanmaq, Onun əmrini yerinə yetirmək üçün təmizliyinə əhəmiyyət verər, günlərlə heç kimlə görüşməsə belə həmişə təmiz və baxımlıdır.

Əli: Əhməd babam verdiyin məlumatlar üçün çox təşəkkür edirəm. İzah etdiklərini düşünərək həm yazımı yazacağam, həm də bundan sonra təmizlik mövzusunda daha diqqətli olacağam.

Əli dərhal evə getdi və tapşırığını yazmağa başladı. Yazdıqlarını tezliklə məktəbdə yoldaşlarına və hər kəsə izah etmək üçün böyük bir həyəcan yaşayırdı. Onun Quran əxlaqını izah etmək üçün duyduğu bu şövq və həyəcan, iman edən hər insanda olmalı mömin əlamətlərindən biridir.

# ÇETİN İLƏ BƏZƏKLİ TOVUZ QUŞU

Həftə sonu Çetin, bacısı və anası zooparka getmişdilər. Bir-birindən sevimli, bir-birindən gözəl heyvanları təəccüblə izləyir, bəzilərinə yem verir, bəzilərini uzaqdan seyr edirdilər. Yaramaz bir fil balası Çetinin bacısının paltarına su fışqırtdı. Çetin və anası gülərək yollarına davam etdilər:

Çetinin anası: Baxın bu bəzəkli tovuz quşudur.

Çetin və bacısı həqiqətən də tovuz quşunun gözəlliyi qarşısında çox təsirlənmişdilər. Çetin daha yaxından baxa bilmək üçün tovuz quşuna bir az daha yaxınlaşdı.

Tovuz quşu: Salam sevimli Çetin. Mən həqiqətən də heyvanlar aləminin ən bəzəkli canlısı olaraq tanınıram.

Çetin: Quyruğun çox gözəldir. Bütün tovuz quşlarının quyruqları belədirmi?

Tovuz quşu: Xeyr kiçik dostum. Bu quyruq yalnız biz erkək tovuz quşlarında vardır. Biz bu gözəl quyruğumuzdan yoldaşımız olmasını istədiyimiz dişi tovuz quşlarını heyran etmək üçün istifadə edərik.

Çetin: Özünü görə bilməyən bir tovuz quşu quyruğunu açdıqda bu qədər gözəl və cazibədar göründüyündən necə əmin ola bilər ki? Bunun biri tərəfindən sizə öyrədilməsi lazım deyilmi? İnsanlar belə ancaq aynaya baxanda necə göründüklərindən tam əmin ola bilərlər.

Tovuz quşu: Haqlısan! Biz aynaya baxıb bu gözəlliyimizi görmürük. Quyruğumuzu bu şəkildə açarkən cazibədar hala gələcəyimizi bizə Allah öyrədir.

Çetin tovuz quşuna yaxından baxdıqda açılan quyruğundakı möhtəşəm rənglər və naxışlar qarşısında təəccübləndi.

Çetin: Sanki, möhtəşəm bir şəklə baxıram. Rənglər o qədər gözəldir ki...

Tovuz quşu: Quyruğumdakı bu gözəl naxışları mən çəkmiş ola bilərəmmi? Əlbəttə ki, bunlar qeyri-mümkündür kiçik yoldaşım. O halda biz tovuz quşlarının fövqəladə gözəl olan quyruğu özbaşına meydana gəlməmişdir. Bizim bu gözəl rənglərimizə hamı heyran qalır. Çünki bütün canlılar kimi bizi də bu gözəllikdə yaradan Allahdır.

Çetin: İndi canlıları bu qədər gözəl yaradanın Allah olduğunu yenidən başa düşdüm. Əlvida, gözəl yoldaşım!

Çetin Allahın üstün gücünə böyük bir heyranlıq duyaraq, bacısının və anasının yanına qayıtdı. Onlara da tovuz quşunun bu gözəlliyini Allahın yaratdığını xatırladacaqdı.

Tovuz quşu, Çətinin arxasından səsləndi.

Tovuz quşu: Əlvida!

# CAN İLƏ BALACA QUŞ

**“O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır...”. (Həşr surəsi, 24)**

Can məktəbdən evə gəldiyi vaxt çöldə şiddətli bir yağış başlamışdı. Yeməyini yedikdən sonra tapşırıqlarını yerinə yetirməyə başlamadan əvvəl anasından yağışı seyr etmək üçün bir az izn aldı. Anası Cana qısa bir müddət izn verdi. Can da pəncərənin kənarına gəlib yağan yağışı seyr etməyə başladı. Küçədə çətirləriylə gedənlərdən başqa, çətiri olmadığı üçün mənzillərin kənarına sığınan insanlar vardı. Bir müddət sonra ətrafda yağış suları toplanmağa başladı. Yoldan keçən avtomobillər suları ətrafa sıçradır, insanlar islanmamaq üçün kənara qaçırdılar. Can dərhal evdə olmağının nə qədər yaxşı olduğunu, Allahın onlara verdiyi isti ev və yeməklər üçün daha çox şükür etməsinin lazım olduğunu düşündü. Tam o vaxtda pəncərənin qabağına bir sərçə qondu. Yəqin ki, yazıq quş yağışdan sığınacaq bir yer axtarır deyə düşünərək dərhal pəncərəni açdı.

Can: Salam, mənim adım Candır. İstəsən içəri girə bilərsən.

Quş: Təşəkkür edirəm Can. Yağış dayanana qədər içəridə gözləyə bilərəm.

Can: Çöldə çox üşümüş olmalısan. Daha əvvəl heç bu qədər yaxından bir quş görməmişdim. Ayaqlarınız nə qədər də incəymiş. Bu incə ayaqlarla bədəninizi necə daşıya bilirsiniz?

Quş: Bəli Can, biz quşların ayaqları bədənimizə görə incədir. Amma buna baxmayaraq bədənimizin ağırlığını asanlıqla daşıya bilirik. İncə ayaqlarımızın içində bir çox əzələ, damar və sinir var. Əgər biz quşların ayaqları daha qalın və kobud olsaydı uçmağımız olduqca çətinləşərdi.

Can: Uçmaq kim bilir nə qədər gözəl bir hissdir. Qanadlarınız da incədir, amma onlardan istifadə edib uça bilirsiniz. Bəs necə olur ki, yorulmadan çox uzaq məsafələrə uça bilirsiniz?

Quş: Uçmaq üçün ilk qanadlandığımız vaxt çox enerji sərf edərik, çünki bədənimizin bütün ağırlığını incə qanadlarımızla qaldırmalı olarıq. Amma bir dəfə uçmağa başladıqda dincələ bilməyimiz üçün havada özümüzü küləyə təslim edərik. Bu yolla daha az enerji sərf etdiyimiz üçün tezliklə yorulmarıq. Küləyin təsiri keçdikdə isə təkrar qanad çırpmağa başlayarıq. Allahın bizim üçün yaratdığı asanlıqlar hesabına çox uzaq məsafələrə uça bilərik.

Can: Bəs uçarkən ətrafınızı necə görə bilirsiniz?

Quş: Bizim ən yaxşı duyğu orqanlarımızdan biri də gözlərimizdir. Uca Allah biz quşlara, uçma qabiliyyətimizlə yanaşı üstün bir görmə qabiliyyəti də vermişdir. Əgər özlüyündə bir möcüzə olan uçma qabiliyyətimiz, üstün bir görmə qabiliyyətimiz olmasaydı olduqca təhlükəli olardı. Çox uzaqdakı obyektləri insanlardan daha çox dəqiq görmə gücünə və daha geniş bir görmə sahəsinə sahibik. Beləcə təhlükələri əvvəlcədən fərq edərək uçuşlarımızın istiqamətini və sürətini tənzimləyə bilərik. İnsanlar kimi gözlərimizi hərəkət etdirə bilmərik. Çünki gözlərimiz yuvalarında sabitdir. Amma başımızı və boynumuzu sürətlə çevirərək görüş sahəmizi genişlədə bilərik.

Can: Deməli, buna görə də quşlar həmişə başlarını oynadır. Yəni, ətrafınızı daha asan görə bilmək üçün belə edirsiniz. Bütün quşların gözləri eynidirmi?

Quş: Bayquş kimi gecə quşlarının çox iri gözləri vardır. Gözlərindəki bəzi xüsusi hüceyrələr zəif işığa qarşı həssasdır. Bu xüsusiyyətləri hesabına bayquşlar, gecələri çox yaxşı görüb ov edə bilirlər.

Allah, su quşları deyilən növlərimizin gözlərini isə suyun içində çox dəqiq görə biləcək bir şəkildə yaratmışdır. Su quşları başlarını suya salıb çıxararaq sudakı böcək və balıqları asanlıqla tutarlar. Allah su quşlarının gözlərində su altında görməyə uyğun bir quruluş yaratmışdır. Bunun hesabına suyun altını aydın görər və dərhal ovlarına tərəf üzərlər.

Can: Bütün quşların dimdikləri bir-biriylə eyni deyil. Bunun səbəbi nədir?

Quş: Allah dimdiklərimizi, növlərimizə əsasən müxtəlif formada çox əhəmiyyətli vəzifələri yerinə yetirə biləcək şəkildə yaratmışdır. Biz quşların dimdikləri, yaşadığımız mühitdə qidalanmamıza ən uyğun olacaq formadadır. Tırtıl və soxulcan kimi böcəklər, böcək yeyən biz quşlar üçün çox ləzzətli canlılardır. İncə və iti dimdiyimizlə tırtılları və torpağın altındakı soxulcanları asanlıqla çıxara bilərik. Balıqla qidalanan növlərimizin dimdikləri ümumiyyətlə balıqları asanlıqla ovlamaq üçün uzun və çömçə formasındadır. Bitkilərlə qidalanan növlərimizin dimdikləri isə qidalandıqları bitki növünə görə o bitkilərə ən asan yolla çata biləcəkləri formadadır. Rəbbimiz yer üzündə yaşayan bütün canlılara ehtiyac duyduqları xüsusiyyətləri nöqsansız və qüsursuz olaraq vermişdir.

Can: Mənim kimi qulaqların yoxdur, amma məni rahatlıqla eşidə bilirsən.

Quş: Eşitmək də biz quşlar üçün çox əhəmiyyətlidir. Bu yolla ov edə bilər, ətrafımızdakı təhlükələrə qarşı qorunar və xəbərləşə bilərik. Bəzi quşlarda çox zəif səsləri çox asanlıqla eşitmələrini təmin edən qulaq pərdələri vardır. Bayquşların isə qulaqları səsə qarşı çox həssasdır. Eşitmə dərəcələri insanlardan xeyli çoxdur.

Can: Siz quşlar çox gözəl oxuyursunuz. Sizin səsinizə qulaq asmaq çox xoşuma gəlir. Səsinizi hansı məqsədlər üçün istifadə edirsiniz?

Quş: Bəzi növlərimiz düşmənlərini çaşdırmaq üçün səslərindən müxtəlif formalarda istifadə edərlər. Ağac oyuqlarında qurduğumuz yuvalarımızı düşmənlərdən qorumaq üçün bir ilan kimi fısıldayarıq. Yuvaya hücum edən yırtıcı heyvan yuvada bir ilan olduğunu düşünər, beləcə biz də yuvamızı qorumuş olarıq.

Can: Yuvalarınızı düşmənlərdən qorumaq üçün başqa nələr edirsiniz?

Quş: Yuvalarımızı düşmənlərdən qorumaq üçün bir çox saxta yuvalar qurarıq. Beləcə aralarında gizlətdiyimiz həqiqi yuvamızı və yumurtalarımızı düşmənləri çaşdırmaqla qorumuş olarıq. Yuvalarımızı zəhərli ilanlardan qorumaq üçün girişlərini gizli və mürəkkəb formada qurarıq. Başqa bir tədbir olaraq da budaqları tikanlı ağacların üstünə qoymaqla yuva qurarıq.

Can: Bəzi quşlar suda necə üzə bilirlər. Niyə bütün quşlar suda üzə bilməz?

Quş: Yaradanımız olan Allah bəzi növlərimizə suda üzə biləcək xüsusiyyətlər vermişdir. Suya girdikdə üzmələrini təmin etmək üçün ayaq barmaqlarının arasını pərdəli yaratmışdır. Digər növlərimizin ayaq barmaqları isə incə və pərdəsizdir. Buna görə də su quşlarından başqa, digər quşlar suda üzə bilməz.

Can: Eynilə bir palitra kimidir. Üzərkən ayağıma palitra taxdıqda çox sürətlə üzə bilirəm.

Quş: Məhz bəzi növlərimiz də anadangəlmə bu palitraya malikdir.

Can ilə quş söhbətlərinə davam edərkən anası Canın tapşırıqlarını yerinə yetirməsi üçün otağına çağırdı. Bu vaxtda yağış da dayanmışdı.

Can: Mən artıq otağıma gedib tapşırıqlarımı yerinə yetirmək məcburiyyətindəyəm. Sabah məktəbdə siz quşların xüsusiyyətlərini və Uca Allahın bütün varlıqlar kimi sizləri də üstün yaratma sənədiylə nə qədər qüsursuz yaratdığını yoldaşlarıma izah edəcəyəm.

Quş: Yağış dayandığına görə mən də artıq yuvama qayıda bilərəm. Can, məni içəri aldığın üçün çox təşəkkür edirəm. Yoldaşlarına biz quşları izah edərkən bütün canlılara olduğu kimi biz quşlara da çox yaxşı baxmaları və onlara daş atmamalarının lazım olduğunu da izah edərsənmi?

Can: Əlbəttə ki, izah edərəm. Allaha əmanət ol.

Can pəncərəni açdı və quş da dərhal uçdu və səmada süzülməyə başladı. Can da Allahın yaradılışındakı üstünlüyü düşünərək tapşırıqlarının yanına əyləşdi

**"Məgər onlar Allaha tabe olub havada uçan quşları görmürlərmi? Onları havada saxlayan ancaq Allahdır. Həqiqətən, bunda iman gətirən insanlar üçün dəlillər vardır". (Nəhl surəsi, 79)**

## ƏLİNİN KİÇİK DOSTU

**"Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər vardır. Sizin yaradılışınızda və Allahın yer üzünə yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır". (Casiyə surəsi, 3-4)**

Əli və ailəsi bazar günü səyahətə çıxmaq üçün erkəndən meşəyə gəlmişdilər. Anası gəzinti vəsaitlərini yerləşdirirdi.

Anası gələrkən səbəti Əlinin çox sevdiyi köklərlə doldurmuşdu. Əli dərhal bir ağacın altında əyləşdi. Bir tərəfdən kitab oxuyur, bir tərəfdən köklərindən yeyirdi. Bir dovşanın səbətə doğru yaxınlaşdığını gördü. Əli kiçik dovşanı qorxutmamağa diqqət göstərərək yavaşca qalxdı.

Əli: Kiçik dovşan, deməli qarnın acdı!

Dovşan: Şeyy... Bəli, kökü çox sevirəm.

Əli: Gəl birlikdə yeyək, həm bir az söhbət edərik, sənin haqqında maraqlandığım çox şey var.

Dovşan: Biz dovşanlar torpaq altında qazdığımız yuvalarda yaşayarıq. Və köklər də tam bizim bu yer altındakı həyatımıza uyğun olaraq yerin altına tərəf böyüyərlər. Beləcə onlara asanlıqla çata bilərik. Ən sevdiyimiz yemək olan yerkökünə asanlıqla çata bilməyimiz üçün Uca Allah onları ən uyğun şəkildə yaratmışdır. Allah belə dilədiyi üçün, biz yeməyimizi asanlıqla tapa bilərik. Bu Allahın yaratma möcüzələrindən biridir.

Əli, Allahın hər şeyi canlıların istifadəsinə necə də uyğun yaratmış olduğunu düşündü. Ağlına qışda yediyi portağal gəldi. Bu meyvənin asanlıqla yeyə bilməyimiz üçün xüsusi olaraq qabığından dilimlənmiş halda çıxmasına təəcübləndi. Əgər belə olmasaydı, sulu halıyla onu yeməyimiz çox çətin

olacaqdı. İçində sağlamlığımız üçün çox faydalı olan C vitamininin olduğu bu meyvəni, Allahın bizim asanlıqla yeməyimiz üçün dilimlənmiş və qablaşdırılmış bir şəkildə yaratmış olmasına şükür etdi. Və əlbəttə ki, onu asanlıqla yeməsi üçün dişlərinin olması da ayrı bir nemətdir. Eynilə dovşanın kökü asanlıqla gəmirməsini təmin edən ön dişləri kimi, Allah ona da yemək yeyə bilməsi üçün dişlərini vermişdi.

Əli: Bəs, Uca Allah sizə başqa nə kimi xüsusiyyətlər vermişdir?

Dovşan: Allah hər canlıya həyatlarını asanlaşdıracaq bir çox xüsusiyyət vermişdir. Yer üzündə müxtəlif xüsusiyyətlərə sahib növbənöv dovşanlar vardır. Məsələn, soyuq ərazilərdə yaşayan dovşanlar ümumiyyətlə ağ rənglidir. Çünki bu onların qarın üstündə fərq edilməsinin qarşısını alır və beləcə asanlıqla gizlənə bilir. Mənim kimi yabanı dovşanların ayaqları və qulaqları daha uzundur. Çöllərdə yaşayan Amerikan dovşanının isə iri qulaqları vardır. Bu qulaqlar dovşanın isti çöllərdə sərinləməyinə kömək edər.

Əli: Sənin tısbağayla olan hekayəni hamı bilir. Məncə sürətli qaçırsan, doğrudurmu?

Dovşan: Bəli, arxa ayaqlarım ön ayaqlarımdan daha uzun və güclüdür. Bunun hesabına, saatda 60-70 km sürətlə qaça bilir və bir dəfədə 6 metr məsafəyə sıçraya bilirəm.

Əli: Bəs yerin altındakı evini necə tapırsan, ya sən olmadığın vaxt oraya başqa bir dovşan yerləşsə?

Dovşan: Bəzi heyvanlar evlərinin yerini tapmaq üçün "iy buraxmaq" üsulundan istifadə edərlər. Məsələn, ceyranlar gözlərinin altındakı vəzilərdən ifraz olunan bir maddə buraxarlar. Bu ifrazatdan yayılan iylə yaşadıqları ərazini işarələmiş olarlar. Biz də çənəmizdəki vəzilər ilə bir iy ifraz edərək evlərimizi işarələyərik. Beləcə orada başqa bir heyvan qala bilməz, biz də yuvamızı asanlıqla taparıq. Əlbəttə ki, bunu öz iradəmizlə deyil, ancaq Allahın ilham etməsiylə edərik.

Əli: Qardaşların varmı?

Dovşan: Biz dovşanların sürətli bir çoxalma dövrü vardır. Analarımızın hamiləlik müddəti qısadır, yəni təxminən 28-33 gün qədərdir. Bir dəfədə bir çox bala doğarlar. Məsələn, mənim 15 qardaşım var. Balalar təxminən bir ay analarının yanında qalarlar. Dovşanların başqa bir xüsusiyyətləri də doğumdan 3-4 gün sonra sonra cütləşə bilmələridir.

Bu vaxtda Əlinin atası, yanlarına gəldi və söhbətə qoşuldu.

Əlinin atası: Kiçik dovşan bütün bunları mən belə bilmirdim. Allah razı olsun. Allah bütün kainatı, içindəki canlı-cansız hər şeyi necə də qüsursuz olaraq yaratmışdır. Quranda Uca Rəbbimiz belə buyurur:

**"Budur sizin Rəbbiniz olan Allah. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Hər şeyin Yaradıcısı Allahdır! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır". (Ənam surəsi, 102)**

Bütün bu verdiyi nemətlər sonsuz axirət həyatımıza hazırlıq görməyimiz və imtahan olduğumuz dünya həyatında Ona şükür etməyimiz, Onun razılığını qazanaraq yaşamağımız üçündür. Bilirsinizmi Allah Quranda, "insanları ancaq Özünə ibadət etmələri üçün" yaratdığını bizə bildirir. Bizim də

edəcəyimiz ən gözəl şey, bütün bu nemətlərə şükür etmək, həyatımızı Qurana görə qurmaq və “Allah üçün” yaşamaq olmalıdır. Allah Quranda belə buyurur:

**“Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!”. (Kəhf surəsi, 28)**

Əli: Atacan, insan ətrafına bir az düşünərək baxdıqda şükür etməyə çox şey görür, elə deyilmi? Hər gün görməyə vərdiş etdiyimiz bir ağac, uçan bir quş, bu kiçik dovşan və s. buna nümunədir. Bir az düşünüb araşdırdıqda hamısında qüsursuz bir dizayn olduğunu görürük. Bunu etməyə ancaq hər şeyi nümunəsiz olaraq yaradan Uca Allahın gücü çata bilər, elə deyilmi? Yoxsa bir dovşan bütün bu xüsusiyyətləri özündə cəmləşdirməyi necə fikirləşə bilər ki?

Dovşan: Əli, çox haqlısan. Allah bizə yaradılışımıza uyğun xüsusiyyətləri verməsəydi, heç birimizin onlara sahib olmağa gücü çatmazdı.

Əlinin atası: Əli, gəzintiyə gəlməyimiz çox yaxşı oldu. İlk baxışda bizimlə gəzintiyə gəlmək heç də cazibədar görünməmişdi, amma burada kiçik dovşanla tanış olub bu söhbəti aparmağın bir çox mövzuda təkrar düşünməyini təmin etdi.

Əli: Haqlısan atacan, bu söhbət mənim hər şeydə Allahı görməyimə çox kömək etdi. Çox təşəkkür edirəm kiçik dovşan. Mən atamla getməliyəm. Anamdan soruşum, yenə də kökümüz varsa sənə gətirər. Təkrar görüşmək üzrə hələlik, əlvida.

Dovşan: Təşəkkürlər Əli, Allaha əmanət olun.

## MURAD İLƏ PİŞİK

**“...əgər anlayırsınızsa, bilin ki, O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!”. (Şuəra surəsi, 28)**

Məktəbdən evə qayıtdıqda Muradı böyük bir sürpriz gözləyirdi. Atası ona kiçik bir pişik balası almışdı!

Murad boş vaxtlarını bu sevimli pişiklə oynayaraq keçirməyə başlamışdı. Bir gecə yatarkən pişiyin otaqdan çıxıb, qapqaranlıq bir otaqda süd qabını dərhal tapdığını gördükdə Murat heyrətə gəldi.

MURAD: Görək bu qaranlıqda süd qabını necə də asanlıqla tapa bildin?

PiŞiK: Murad, bizim görməyimiz üçün azacıq işıq kifayətdir. Gözlərimiz insanlarınkından fərqli yaradılmışdır. Göz bəbəklərimiz qaranlıqda mümkün olduğu qədər çox işıq qəbul etmək üçün böyüyərək yuvarlaqlaşırlar. Bundan başqa biz pişiklərin gözlərində siz insanlarınkında olmayan bir təbəqə vardır. Torlu qişanın dərhal arxasında yerləşən bu təbəqədən işıq əks olunur. Beləcə işıq torlu qişadan iki dəfə keçmiş olar. Biz də buna hesab qaranlıqda asanlıqla görə bilərik və gözlərimiz də daha parlaq olar.

Şübhəsiz ki, Allah bizi hər cür şərait üçün ən uyğun şəkildə yaratmış, bizə ehtiyacımız olan xüsusiyyətləri vermişdir. Bu xüsusiyyətlərə təkamül nəzəriyyəsinin iddia etdiyi kimi vaxt ərzində və təsadüflər nəticəsində sahib olmağımız, əlbəttə ki, qeyri-mümkündür. Allah pişiklər kimi bütün canlıları bir anda qüsursuzca yaratmışdır.

MURAD: İnsanlar sizi bir də hündür bir yerdən "həmişə dörd ayaq üstündə düşmə" qabiliyyətinizlə tanıyırlar. Bunu necə bacarırsınız?

PiŞiK: Haqlısan. Biz pişiklər ağacların üstündə, hündür yerlərdə gəzməyi çox sevərik. Ancaq buralardan düşmə təhlükəsinə qarşı Allah, bizlərə bu xüsusi qabiliyyəti vermişdir. Düşərkən tarazlığımızı təmin etmək üçün quyruğumuzdan istifadə edir və bədənimizin ağırlıq mərkəzini bunun hesabın dəyişdirib, pəncələrimizin üstünə düşməyi bacararıq. Bu qoruyucu xüsusiyyətiylə Allah sonsuz şəfqət və mərhəmətini göstərir.

Murad kiçik pişiyi şəfqətlə qucağına aldı. Hər gün qarşılaşdığı bu sevimli varlıqların əslində Allahın üstün yaradıcılığının nə qədər əhəmiyyətli bir dəlili olduğunu düşündü. Pişiklərə olan sevgisi və şəfqəti beləcə daha da artdı. Tükləri tumarlanan bala pişik də zümzümə edərək Murada olan sevgisini ifadə etdi.

**"Məgər Allahın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir". (Həcc surəsi, 65)**

# CÜNEYT İLƏ MÜRƏKKƏB BALIĞI

Cüneyt yay tətilini bol-bol üzməklə dəyərləndirirdi. Atası üzərkən suyun altını görə bilməsi üçün ona bir dəniz eynəyi hədiyyə etmişdi. Cüneyt dəniz altında gördüyü möhtəşəm gözəllik qarşısında elə bil ovsunlanmışdı. Yenə eynəklərlə dənizin altını seyr edərkən balığa bənzəməyən bir canlı gördü.

Cüneyt: Ey! Sən kimsən?

Mürəkkəb balığı: Cüneyt təəccüblənməkdə haqlısan. Nə qədər ki, "balıq" adını daşısaq da biz mürəkkəb balıqları digər balıqlardan çox fərqlənirik. Məsələn, bizim bədənimizdə heç sümük yoxdur.

Cüneyd: Bədəninizdə sümük yoxsa necə hərəkət edirsiniz?

Mürəkkəb balığı: Həqiqəti bilmək istəsən bizim çox təəccüblü bir hərəkət qabiliyyətimiz var! Bizim bədənimiz çox yumşaq və dərimiz də çox qalındır. Dərimizin altında da bəzi əzələlər vardır. Bu əzələlərdən istifadə edərək bədənimizə su çəkərik və daha sonra bu suyu möhkəm şəkildə geri qaytararıq. Bu da bizim üzməyimizi təmin edər.

Cüneyt: Bunu necə etdiyini tam olaraq izah edərsənmi?

Mürəkkəb balığı: Başımızın iki tərəfində cibə bənzəyən bir dəlik var. Bu dəlikdən aldığımız suyu bədənimizin içində olan bir boşluğa çəkərik. Sonra da içəridəki bu suyu, başımızın dərhal altında olan incə bir borudan çox sürətli bir şəkildə püskürdərik. Bunun hesabına əmələ gələn güclə əks istiqamətə tərəf sürətlə hərəkət edərik. Həmçinin bizi tutmaq istəyən düşmənlərimizdən də ani bir sürətlə qaçarıq.

Cüneyt: Yaxşı, tutaq ki, bu qaçış sürəti kifayət etmədi, bəs onda nə edirsiniz?

Mürəkkəb balığı: Əgər qaçış sürəti kifayət etməsə bədənimizdə hazırladığımız tünd rəngli boyanı bir bulud şəklində düşmənlərimizə tərəf püskürdərik. Bu bulud düşməni xeyli çaşdırar. Bu bir neçə saniyəlik çaşqınlıq da bizim üçün kifayətdir. Hazırladığımız rəngli bulu hesabına arxasında görünməz olar və sürətlə həmin yerdən uzaqlaşarıq.

Cüneyt: Allah sizi də qarşılaşacağınız hər çətinliyə qarşı xüsusi olaraq təchiz etmişdir. Düşünürəm ki, bu xüsusiyyətlərimizi nə biz insanlar, nə də siz canlılar öz özümüzə əsla tapa bilməzdik.

Mürəkkəb balığı: Haqlısan Cüneyt. Məhz bu Uca Allahın üstün yaratma elmindən qaynaqlanır. Gördüyün bütün canlıları bu məlumatla və mükəmməl xüsusiyyətlərlə Allah yaratmışdır. Heç bir canlı bu xüsusiyyətlərinə öz-özünə sahib ola bilməz. Allahın gücü və elmi hər şeyi ehtiva etmişdir. Ondan başqa güc yoxdur.

Cüneyt: Mürəkkəb balığı, səni tanımağıma çox sevindim. Verdiyin məlumatlar üçün təşəkkür edirəm.

**"Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur". (Bəqərə surəsi, 255)**

# KƏRƏM İLƏ DƏNİZ ATI

Kərəm, yay tətili üçün ailəsiylə birlikdə cənubda dəniz sahilindəki bir tətil şəhərinə getmişdi. Kiçik bir dükanın qabağındakı bir akvariumda maraqlı dəniz canlıları nümayiş olunurdu. Kərəm akvariuma yaxınlaşdı. İçində yavaş-yavaş gəzən bir dəniz atı gördü.

Kərəm: Dəniz atlarının daha böyük olduğunu güman edirdim, necə də kiçikmişsən!

Dəniz atı: Bəli, bizi kitablardan və televiziyadan tanıyanlar daha böyük canlılar olduğumuzu düşünürlər. Halbuki boylarımız 4 sm ilə 30 sm arasında dəyişir.

Kərəm: Sizin gözləriniz bütün istiqamətlərə tərəf hərəkət edə bilir, elə deyilmi? Və bunun hesabına ətrafınızdakı bütün hadisələrdən xəbərdar ola bilirsiniz.

Dəniz atı: Haqlısan, Allah bizim başımızı bədənimizlə düz bucaq əmələ gətirəcək şəkildə yaratmışdır. Başqa heç bir dəniz heyvanında bu xüsusiyyət yoxdur. Buna görə də bədənlərimiz şaquli vəziyyətdə üzər, başımızı yalnız yuxarı və aşağı hərəkət etdirə bilərik. Əslində bu xüsusiyyət digər canlılarda olsa, başlarını sağa-sola çevirə bilməyəcəkləri üçün problem yaşaya bilər və hər cür təhlükəyə qarşı müdafiəsiz ola bilərdilər. Lakin biz sahib olduğumuz xüsusi bədən dizaynı hesabına belə bir problem yaşamırıq.

Uca Allah gözlərimizi bir-birindən müstəqil, bütün istiqamətlərə sərbəst hərəkət edə biləcək və fırlanaraq hər tərəfi rahatlıqla seyr edə biləcək şəkildə yaratmışdır. Buna görə də başımızı iki yana çevirə bilməsək də ətrafımızı görə bilərik.

Uca Allah, yaratdığı hər növ canlılardakı bənzərsiz dizaynlar, heyrət oyandıran xüsusiyyətlər ilə insanlara sonsuz sənətini və sonsuz elmini göstərir.

Kərəm: Mənə bir şey maraqlı gəlir. Sənin nə qanadın, nə də quyruğun var. Suyun içində necə enib yüksələ bilirsən?

Dəniz atı: Üzməyimiz çox xüsusi bir sistemə hesab baş verir. Bizim üzmə kisələrimiz var və bu kisədə olan bir növ qazın miqdarında lazım olan dəyişiklikləri aparmaqla suda yüksəlib enə bilərik. Əgər bu hava kisəsinə zərər gəlsə və az miqdarda da olsa qaz itirsə biz də dənizin dibinə batarıq!

Yəni üzmə kisəsindəki qazın miqdarında baş verəcək hər hansı bir dəyişiklik bizim ölməyimizə səbəb olar. Rəbbimiz bu miqdarı çox həssas bir şəkildə yaratmışdır.

Kərəm: Bu möhtəşəm bir dizayndır.

Dəniz atı: Gördüyün kimi kiçik dostum, kainatdakı hər varlıq kimi dəniz atlarını da bütün xüsusiyyətləriylə birlikdə nöqsansız olaraq Allah yaratmışdır. Dəniz altındakı bir çox canlı növündən biri olan biz dəniz atlarındakı dizayn Allahın sonsuz gücünün, sonsuz elminin nümunələrindəndir.

Kərəm dəniz atıyla olan söhbəti bitirdikdən sonra anasının yanına qayıtdı. Bu kiçik heyvandakı möhtəşəm dizayn, Kərəmin Allahın yaratma sənətinə duyduğu heyranlığı daha da artırmışdı.

# ORXAN İLƏ HƏSƏN BABA

Orxan pəncərədən çölə baxır, babasının gəlməsini həyəcanla gözləyirdi. Babasıyla vaxt keçirmək çox əyləncəli və gözəl idi. Nəhayət babası gəlmişdi. Orxan həyəcanla qapıya tərəf qaçdı və babasının boynunu qucaqladı. Tam gözlədiyi kimi babası ona hədiyyələr gətirmişdi. Çox sevdiyi şkoladlar və bəzi şəkilli kitablar gətirmişdi. Həsən baba nəvəsinin bu şən halını çox sevirdi. Belə dedi:

**Həsən baba:** Bu gün şəhərin kənarında kiçik bir işim var, mənimlə birlikdə gəlmək istəyərsənmi? Həm sən də gəzmiş olarsan. Orxan sevinclə qəbul etdi və dərhal yola düşdülər. Şəhərdən uzaqlaşmağa başlamışdılar. Bu sürpriz səyahət Orxanın çox xoşuna gəlmişdi.

**Orxan:** Necə də gözəl tərtəmiz havadır, ciyərlərimiz bu gün bu gözəl hava ilə dolacaq. Kaş ki, qaldığımız şəhərin havası da həmişə belə gözəl olsaydı!

**Həsən baba:** Orxan, bu bir az çətindir, çünki avtomobillərdən ayrılan mühərrik tüstüləri, xüsusilə qışda bacalardan çıxan tüstülər, bir də ağacların, bitkilərin az olması şəhərin havasının təmiz qalmasına mane olan səbəblərdir.

**Orxan:** Tüstüləri başa düşdüm, amma bitkilərin mövzuyla əlaqəsini heç cür başa düşə bilmədim. Ağaclar meyvə verən və ya şəhəri gözəlləşdirən bitkilər deyilmi?

**Həsən baba:** Bəli bütün bu dediklərini ağaclar edir, amma onların bəlkə də bunlardan daha əhəmiyyətli olan xüsusiyyətləri havanı təmizləmələridir. Bitkilər digər canlıların tam əksinə nəfəs alarlar. İnsanlar və heyvanlar havadakı oksigeni alıb, bunu bədənlərində istifadə etdikdən sonra çirklənən hava karbon qazı olaraq havaya buraxırlar. Məhz bitkilər bunun əksini edər, havadakı karbondioksidi alıb, oksigeni havaya buraxar. Beləcə təmizlik əməliyyatı reallaşmış olar.

Orxan, bitkilərin başqa möcüzəvi xüsusiyyətləri də var və bunların hamısını yaradan, üstün ağıl sahibi olan Allahdır. İstəsən sənə bitkilər haqqında bildiklərimi izah edə bilərəm.

**Orxan:** Əlbəttə ki, babacan, qulaqlarımı açdım səni dinləyirəm!

**Həsən baba:** Bitkilərin nəfəs alması fotosintez prosesiylə reallaşar.

**Orxan:** Fotosintez nədir?

**Həsən baba:** Sənin marağını aradan qaldırmağa çalışacağam, amma bu o qədər asan olmayacaq, çünki bu mövzu çox çətin və mürəkkəbdir. Alimlər hələ fotosintez əməliyyatını tam mənasıyla həll etməyə çalışırlar.

**Orxan:** Alimlərin hələ də həll etməyə çalışdığı bir əməliyyatla bitkilər həyatlarını davam etdirirlər. Həmçinin əməliyyat dedikdə insanın ağlına riyazi əməliyyatlar, düsturlar gəlir. Biz hətta riyaziyyat dərsində bəzən çətinlik çəkdikdə, bizim kimi bir zəka və bədənə sahib olmayan bitkilərin bunu etməsi bir möcüzədir!

**Həsən baba:** Bəli, bu qəti olaraq bir möcüzədir. Bu kimyəvi əməliyyat, bitkilər tərəfindən ilk yaradıldıqları gündən etibarən heç ləngimədən həyata keçirilir. Yaşıllıq olan hər yerdə, günəş enerjisindən istifadə edərək, karbondioksid və sudan, şəkər meydana gətirən bir fabrik çalışır deməkdir. Yediyimiz ispanaq, salatımızdakı cəfəri, eyvanımızdakı sarmaşıq, biz hiss etmədən, bizim üçün davamlı məhsul hazırlayırlar. Bu, üstün elm sahibi olan Allahın bütün insanlara olan şəfqətinin bir nəticəsidir. Allah, bitkiləri insanların və bütün canlıların faydasına xidmət edə biləcəkləri şəkildə yaratmışdır.

İnsanın, bu günkü texnologiyayla belə qavraya bilmədiyi bu qüsursuz sistemi yarpaqlar milyonlarla ildir ki, həyata keçirirlər. Allah, Quranın bir ayəsində, insanların tək bir ağacı belə yoxdan var etmələrinin qeyri-mümkün olduğunu belə bildirir:

**“Göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən kimdir? Biz onunla gözəl bağçalar saldıq. Halbuki siz onların ağaclarını böyüdə bilməzdiniz…” (Nəml surəsi, 60)**

Orxan, bitkilərin fotosintez deyilən xüsusi bir kimyəvi əməliyyatla nəfəs ala bildiklərinə çox təəccüblənmişdi. Bəs bu əməliyyat necə həyata keçirilirdi? O bunları düşünərkən babası izah etməyə davam etdi:

**Həsən baba:** Şüursuz bitki hüceyrələri torpaqdan, sudan, havadan və Günəşdən istifadə edərək, torpağın içindən müəyyən miqdarda mineralları və suyu qəbul edərək, insan üçün qida hazırlayırlar. Günəş işığından aldıqları enerji ilə bu maddələri parçalayar, sonra parçaladıqları maddələri qidaları əmələ gətirəcək şəkildə bir yerə gətirərlər. Burada qısaca ifadə edilən şey bu əməliyyatın hər mərhələsində ayrı bir ağıl, şüur və planlaşdırmanın müşahidə olunmasıdır. Bitkilərdəki bu heyranlıq oyandıran sistem, ortaya qoyduğu nəticələriylə, çox aydındır ki, insanın faydalanması üçün xüsusi olaraq hazırlanmış bir həyat mənbəyidir.

**Orxan:** Bəs yarpaqlar nə iş görür?

**Həsən baba:** Bir zaman məktəbdə laboratoriyada təcrübə apararkən istifadə etdiyiniz mikroskoplar vardı, məhz onların çox inkişaf etmiş olanlarıyla bir yarpağı yaxından araşdırsaq, Allahın yaratma sənəti bütün ehtişamıyla yenidən qarşımıza çıxar! Tək bir yarpağın içində qüsursuz bir istehsal sistemi qurulmuşdur. Bu sistemi daha yaxşı başa düşə bilmək üçün yarpaq içində ayrı-ayrı vəzifələr yerinə yetirən strukturları gündəlik həyatda istifadə etdiyimiz alətlərə bənzədə bilərik. Yarpağın incəliklərini böyüdərək araşdırdıqda hər an fəaliyyətdə olan şarlar, xüsusi əməliyyatlar üçün inşa edilmiş otaqlar, nəhəng bir düdüklü qazan kimi çalışan klapanlar, minlərlə əməliyyata nəzarət edən çoxsaylı düymə və heç dayanmadan işləyən işçilərlə dolu avtomatik bir qida fabriki ilə qarşılaşarıq. Daha diqqətli baxsaq, müəyyən nöqtələrə yerləşdirilmiş vaxt tənzimləyiciləri, termostatları, hiqrometrləri, xəbərdarlıq sistemlərini və istiliyə nəzarət mexanizmlərini də görə bilərik.

**Orxan:** Bunların hamısının kiçik bir yarpaqda cəmləşməsi və heçləngimədən işləməsi bir möcüzədir!

**Həsən baba:** Orxan, bu mükəmməl sistemi hazırlayıb ən gözəl şəkildə dizayn edən Rəbbimiz Allahdır. Yer üzündəki hər yarpaq Allahın izni ilə bu mükəmməl sistemlərlə birlikdə yaranar. Bunu əsla unutma!

Orxan babasının izah etdiklərinə qulaq asarkən çox böyük bir ağac gördü və ağlına bir sual gəldi. Ağacların bu problemi necə aradan qaldırdığı və həyatlarını davam etdirdikləriylə maraqlanmağa başladı. Dərhal bu sualı babasına verdi;

**Orxan:** Babacan, ağacların boyu çox hündürdür, torpaqdakı su və qidalar necə olur ki, yuxarı çıxa bilir? Görmürsənmi bu ağac necə də hündürdür, amma ən ucundakı yarpaq belə yamyaşıldır?

**Həsən baba:** Yadındadırmı bir az əvvəl yarpaqları bir fabrikə bənzədərək izah etmişdim, yenə eyni bənzətməklə davam edək. Hər yeri bir şəbəkə kimi örtmüş olan boru kəməri xammalın istehsal

məntəqələrinə çatdırılmasını və istehsal məntəqələrində əldə edilən məhsulun bitkinin toxumalarına paylanmasını təmin edər. Bu boru kəməri bitkinin aldığı qidanı və suyu yuxarı doğru qaldırarkən, bir tərəfdən də yarpaqlarda hazırlanan şirəni bütün ağacın qidalanması üçün daxili bölgələrə tərəf aparar. Bu kanalların hamısı yalnız həyati mayeləri daşımaqla kifayətlənməz, həmçinin ağacda və yarpaqda skelet vəzifəsi yerinə yetirərlər. Bu möcüzəvi bir dizayndır. Çünki insanlar tərəfindən inşa edilən tikililərdə, binaların əsas elementləri (kolonlar, dirəklər və s.) və binanın su xətləri ayrı-ayrı inşa edilir. Bitkilərdə bu iki ehtiyacın bir dəfədə həll edildiyi möcüzəvi bir dizayn vardır.

**Orxan:** Bu həqiqətən də möhtəşəm bir sistemdir! Ağlıma bir şey gəldi. Sanki bitkilərin içində gizli bir təqvim ya da saat varmış kimi heç çaşmadan həmişə eyni şəkildə davranırlar. Məsələn, həmişə yazda çiçəkləyir, payızda yarpaqlarını tökürlər. Bu necə olur?

**Həsən baba:** Alimlər buna bioloji saat adını verirlər. Bitkilərin bu vaxt tənzimləmələrini hesablayan saatları, günəş şüasının yarpaqlara düşmə müddətini də hesablayır. Hər bitkinin bioloji saatı bu müddəti bitkinin öz quruluş xüsusiyyətinə görə hesablayır. Məsələn, soya bitkisi üzərində aparılan təcrübələr nəticəsində, bu bitkilərin nə vaxt əkilsələr belə həmişə ilin eyni dövrlərində çiçəklədikləri müşahidə olunmuşdur. Bitkilərin içindəki saatı tənzimləyən, əlbəttə ki, üstün güc sahibi Allahdır.

Həsən baba və sevimli nəvəsi Orxan yolda gördükləri bir alça ağacının yanında dayanıb, təzə meyvə yemək istəmişdilər. Baxça sahibindən izn alıb, alça yığdılar, yaxşı şəkildə yuyub yeməyə başladılar. Həqiqətən çox ləzzətliydilər. Həsən baba belə dedi:

**Həsən baba:** Orxan bilirsənmi, bitkilərin bizə verdiyi enerji Günəşdən aldığımız enerjidir.

**Orxan:** Necə yəni, biz indi bu alçaları yeyərkən Günəşimi yeyirik?

**Həsən baba:** Əslində Günəşi yeyirik, amma birbaşa deyil bilavasitə olaraq. Məlum olduğu kimi yer üzündəki həyatın əsas enerji mənbəyi Günəşdir. Ancaq insanlar və heyvanlar, günəş enerjisini birbaşa istifadə edə bilməzlər, çünki bədənlərində bunun üçün lazımi sistemlər yoxdur. Bəs necə istifadə etdiklərini bilirsinizmi? Günəş enerjisi ancaq bitkilərin hazırladığı qidalar vasitəsilə, istifadə edilə bilər enerji olaraq insanlara və heyvanlara çatar. İstifadə olunan enerji, həqiqətdə bitkilər vasitəsilə bizə nəql olunan günəş enerjisidir. Məsələn, çayımızı qurtumlarkən əslində günəş enerjisini qurtumlayır, çörək yeyərkən dişlərimizin arasında bir miqdar günəş enerjisi mövcud olur. Əzələlərimizdəki güc həqiqətdə günəş enerjisinin dəyişmiş formasıdır. Biz də bu enerji hesabına qaçıb oynaya bilərik. Bəs bitkilər bunu necə bacarır?

Bitkilər günəş enerjisini bizim üçün mürəkkəb əməliyyatlar apararaq özlərində saxlamışdırlar. Bitkilərin öz qidalarını özlərinin hazırlaya bilmələrini və digər canlılardan imtiyazlı olmalarını təmin edən isə, hüceyrələrində insan və heyvan hüceyrələrindən fərqli olaraq günəş enerjisini birbaşa istifadə edə bilən strukturların olmasıdır. Bitkilər bu strukturların köməyi ilə, Günəşdən gələn enerjini, insanlar və heyvanlar tərəfindən qida yolu ilə əldə olunacaq enerjiyə çevirib düsturu gizli olan çox xüsusi əməliyyatlarla, qidalarda bu enerjini saxlayarlar.

**Orxan:** Allah hər şeyi insanların xeyrinə yaratmış, necə də gözəl!

**Həsən baba:** Məhz bütün bunları düşünüb bizə bu qədər çox neməti verən Rəbbimizə şükür etməliyik. Allah bizə şükür etməyimizin lazım olduğunu belə bildirmişdir:

**“Onların meyvələrindən və öz əlləri ilə becərdiklərindən yesinlər. Bəs onlar şükür etməyəcəklərmi?”. (Yasin surəsi, 35)**

Orxanın ən sevdiyi dərs təbiətşünaslıqdır. Birdən ağlına apardıqları bir təcrübə gəldi və babasına tərəf dönüb;

**Orxan:** Baba bilirsənmi, məktəbdə bir təcrübə apardıq. Müəllimimiz bizə bir tapşırıq verdi. Bu tapşırıqda bir pambıq parçasının içinə bir paxla qoyduq, günəş şüası düşən bir yerə qoyub bir neçə gün suladıq. Bil görək nə baş verdi?

**Həsən baba:** İçindən paxla bitkisi çıxdı, elə deyilmi? Məktəbdə çox sadə bir təbiət hadisəsi olaraq izah olunan bu mövzu haqqında bir az düşünək. Əslində burada bir möcüzə ilə qarşı-qarşıyayıq. Sehrbazlıq nümayişlərində boş bir papağın içindən dovşanın çıxması kimi, pambığın və ya torpağın içindən bir bitkinin çıxması da buna bənzəyir. Sehrbaz gözlərimizi aldadar, amma kiçik bir toxumun içindən cücərən bitki heç kimi aldada bilməz. Bütün bitkiləri kiçik qutularından cücərdən üstün elm sahibi olan Rəbbimiz bizə belə bir möcüzə ilə, heç bir canlının təsadüfən var olmadığını aydın şəkildə göstərir. Orxan, canlıların təsadüfən yarandığını deyənlər də ancaq özlərini aldadırlar, elə deyilmi?

**Orxan:** Bəli babacan.

**Həsən baba:** Kiçik toxumun beçələrindən bir hissəsi torpağın dərinliklərinə enər, bir hissəsi də yuxarıya doğru çıxar. Torpaq olduqca sərt və möhkəmdir, hər iki istiqamətə də hərəkət etməsi çox çətindir. Bizim kimi ağıl və şüur sahibi olmayan kiçik beçənin bunları necə bacardığı həqiqətən də bir möcüzədir.

**Orxan:** Əgər tam tərsi olsaydı, yəni torpağın altına qoyduğumuz bir toxum beçələməsəydi, bir düşünün nə baş verərdi! Onda hamımız çox böyük bir yemək sıxıntısı çəkərdik. İnsanlar və heyvanlar yeməyə bir şey tapa bilmədikləri üçün yavaş-yavaş ölərdilər!

**Həsən baba:** Orxan, Allah bizi belə xəbərdar edir:

**“Əkdiyinizi gördünüzmü? Onu siz bitirirsiniz, yoxsa Biz? Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz” (Vaqiə surəsi, 63-65)**

Orxan babasının yol boyunca özünə izah etdiklərini düşünməyə başlamışdı. Babasına düşüncələrini izah etdi:

**Orxan:** Bitkilər həyatımızın davam etməsi üçün necə də əhəmiyyətliymiş. Tənəffüs etdiyimiz havanı təmizləyirlər, qarnımızı doyurub enerji verirlər, hamısı bir-birindən ləzzətli olan tərəvəz və meyvələri bizim üçün çıxarırlar, ətrafımızı gözəlləşdirirlər. Görmürsənmi ki, çöldə nə qədər çox növdə ağaclar, çiçəklər, meyvələr, əkinlər var.

**Həsən baba:** Bitkilərin faydalarıyla əlaqədar sənin unutduğun bir nemətini Allah Quranda belə xəbər verir;

**“O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız”. (Yasin surəsi, 80)**

**Orxan:** Bəli necə də unutmuşam, ağaclar odun halına gətirilib yandırılır, biz də isinirik. Kitablar, dəftərlər, qəzetlər qısaca kağızın xammalı olan ağaclar, od yandırmağımızı təmin edən kibritlər, üstündə oturduğumuz kreslo, iş stolumuz, qapılar, pəncərələr…

**Həsən baba:** Bitkilərin faydalarıyla yanaşı çox maraqlı xüsusiyyətləri də vardır. Mərkəzi və Cənubi Amerikada yetişən bir asma bitkisi, qara və yaşıl tırtıllar ilə qırmızı kəpənəklər üçün çox ideal və cazibədar bir yemək növüdür. Bu böcəklər, balalarının yumurtadan çıxar-çıxmaz bu ləzzətli yeməklə qidalana bilmələri üçün, yumurtalarını asma bitkisinin yarpaqlarının üstünə qoyarlar. Yalnız burada çox əhəmiyyətli bir məqam vardır. Bu kəpənəklər yumurtalarını qoymadan əvvəl asmanın yarpaqlarını yaxşı şəkildə yoxlayarlar. Əgər başqa bir heyvan yumurtalarını qoyubsa, eyni bitkinin yarpaqlarından birdən çox ailənin fərdlərinin qidalanması çətin olacağından, oranı seçməz və boş olan başqa yarpaqları axtararlar.

Asma bitkisi də, yarpaqlarının üst hissələrində yaşıl qabarcıqlar meydana gətirərlər. Bəzi növləri isə, yarpağın altında olan budaq ilə birləşdiyi yerin üstündə, kəpənəklərin yumurtalarına bənzər rəngdə ləkələr meydana gətirərlər. Bunu görən tırtıl və kəpənəklər, başqa böcəklərin özlərindən əvvəl bu yarpaqların üstündə yumurtladıqlarını zənn edər və bitkinin üstündə yumurtlamaqdan imtina edərək, özlərinə yeni yarpaqlar axtarmağa başlayarlar.

**Orxan:** Əla bir müdafiə sistemidir!

**Həsən baba:** Bəli Orxan, bu bitkiyə özünü necə müdafiə edəcəyini öyrədən üstün elm sahibi Allahdır, bunu əsla yaddan çıxartma olarmı?

## OSMAN BABA İLƏ NƏVƏSİ

Tahsin məktəbdən evə qayıtdıqda dərhal babasının yanına qaçdı və ağlına ilişib qalan sualı soruşdu.

**Tahsin:** Babacan, səndən bir şey soruşacağam.

**Osman baba:** Soruş görək Tahsin.

**Tahsin:** Babacan, avtobusda gələrkən bir xala yanındakı yoldaşına səbrin çox əhəmiyyətli olduğunu, həqiqi səbrin Qurana görə olmasının lazım olduğunu izah edirdi. Baba görəsən bu nə deməkdir, izah edə bilərsənmi?

**Osman baba:** Balam, insanların çoxu səbrin əsl mənasını, həqiqətən səbirli bir insanın necə davranmasının lazım olduğunu bilmir. Bu kəslər arasında səbir, daha çox insanın həyatı boyunca qarşılaşdığı çətinlik və sıxıntılara güc gəlməsi, bunlara qatlanması və dözməsi kimi başa düşülər. Halbuki Allahın Quranda öyrətdiyi həqiqi səbir bu dözüm anlayışından çox fərqlidir.

**Tahsin:** Baba, bəs Qurandakı səbrin qaynağı nədir?

**Osman baba:** Tahsin bilirsənmi, Allahın razılığını, sevgisini və məmnuniyyətini qazanmağın yolu, Allahın Quranda bildirdiyi əmr və qadağaları nöqsansız şəkildə tətbiq etməkdir. Allah qullarından, həyatlarının sonuna qədər heç bir zəiflik göstərmədən Quran əxlaqını yaşamalarını istəmişdir. Məhz möminlərin Allahın bu əmrini hər nə olursa-olsun güzəştə getmədən yerinə yetirə bilmələrinin sirri də, imanın qazandırdığı üstün bir xüsusiyyət olan "səbir" də gizlənmişdir. Səbrin həqiqi mənasını öyrənən bir insan Allahın özündən istədiyi hər rəftarda və hər ibadətdə davamlılıq göstərə bilər. İman edən bir insan Allahın elminin və ağlının bütün varlıqları əhatə etdiyini, tək bir şeyin belə Allahın izni olmadan baş verməditiyini və bütün hadisələrin arxasında Allahın yaratdığı bir çox xeyir və hikmətin olduğunu bilir.

**Tahsin:** Onda insan başına gələn heç bir şeyə kədərlənməməli və həmişə səbir etməlidir, elə deyilmi?

**Osman baba:** Çox doğru Tahsin. Allah iman edənlərin dostu, vəlisi və yardımçısıdır. Buna görə də ilk baxışda fərqli görünsə belə başa verən bütün hadisələr iman edənlərin xeyri üçündür. Buna görə də səbir etmək, mömin üçün məcburiyyətlə yaşanan bir əxlaq xüsusiyyəti deyil, əksinə könül xoşluğuyla və məmnuniyyətlə yaşanan, zövq alınan bir ibadətdir. Möminlər, başlarına nə gəlirsə-gəlsin bunu yaradanın Allah olduğunu və bunun mütləq özləri üçün bir xeyirə vəsilə olacağını bilirlər. Allahın özləri üçün ən gözəl taleyi təyin etdiyini bildikləri üçün qarşılaşdıqları hər hadisəyə könüllü surətdə razı olar və məmnuniyyətlə təvəkkül edərlər. Allah bir ayədə belə buyurur: **"O kəslər ki, səbirli olmuş və yalnız öz Rəbbinə təvəkkül etmişlər". (Ənkəbut surəsi, 59)**

**Tahsin:** Onda iman edən kimsənin səbrinin tükənməsi qeyri-mümkündür. Avtobusda gördüyüm xalanın dediklərini indi daha yaxşı başa düşürəm.

**Osman baba:** Bəli balam. İman edənlər, səbri Allahın bir əmri olaraq yaşayarlar və buna görə də heç vaxt onların səbirlərinin tükənməsi kimi bir vəziyyətdən söhbət gedə bilməz. Həyatlarının sonuna qədər bu ibadəti şövq və həyəcanla yerinə yetirərlər.

**Tahsin:** Babacan, indi səbrin əhəmiyyətini və iman edənlərin səbrinin Allahın izni ilə heç tükənməyəcəyini çox yaxşı başa düşdüm, təşəkkür edirəm.

## BİZİM SİNİF

**Müəllim:** Uşaqlar sabahınız xeyir.

**Şagirdlər:** Sabahınız xeyir müəllim.

**Müəllim:** Uşaqlar bayram necə keçdi?

**Şagirdlər:** Müəllim, çox yaxşı keçdi. Bol-bol qartopu oynadıq, qardan adam düzəltdik.

**Müəllim:** Aydın olur ki, həftə sonu tətilində qardan ləzzət aldınız.

**Şagirdlər:** Bəli müəllim, çox əyləndik

**Müəllim:** Uşaqlar, gördüyüm qədəriylə bu gün gəlməyən yoldaşlarınız var.

**Şagirdlər:** Bəli müəllim, Əli və Aişə bu gün gəlmədilər.

**Müəllim:** Yaxşı, bəs niyə gəlmədiklərini bilirsinizmi?

**Şagirdlər:** Müəllim, xəstələniblər, evdə yatırlar.

**Müəllim:** Deməli, qarda çox oynadılar.

**Şagirdlər:** Müəllim biz də qarda oynadıq, biz də xəstələnəcəyikmi?

**Müəllim:** Uşaqlar, əgər özünüzə diqqət yetirməz, uzun müddət şaxtada qalsanız siz də hər an xəstələnə bilərsiniz.

**Şagirdlər:** Müəllim, bəs qar niyə insanı xəstələndirir? Halbuki biz qar yağdıqda çox sevinirik. Qarda oynamaq çox xoşumuza gəlir.

**Müəllim:** Uşaqlar, insanın xəstələnməsinin səbəbi bədənə daxil olan mikroblardır. Bildiyiniz kimi mikroblar gözlə görülə bilməyən canlılardır. Bunlar bədənimizə daxil olub bizə zərər verməyə çalışırlar. Əgər təmizliyimizə diqqət yetirməz, əllərimizi yumadan yemək yesək bunlar bədənimizə daxil olub yerləşərlər.

**Şagirdlər:** Müəllim, mikrob bədənimizə daxil olduqda dərhal xəstələnərikmi?

**Müəllim:** Xeyr, uşaqlar həmişə xəstələnmərik. Allah bizi yaradarkən mikroblara qarşı döyüşməsi üçün bədənimizə mükəmməl bir müdafiə sistemi yerləşdirmişdir. Biz heç hiss etmədən müdafiə sisteminin işçiləri eynilə bir ordu kimi bədənimizi qoruyarlar. Olduqca mürəkkəb olan müdafiə sisteminin hər elementi özünə düşən vəzifəni mükəmməl şəkildə yerinə yetirər.

**Şagirdlər:** Müəllim, bəs biz nə üçün xəstələnərik? Müdafiə sistemimiz vəzifəsini yerinə yetirmədiyi üçünmü?

**Müəllim:** Xeyr, uşaqlar normal bir insanda müdafiə sistemi həmişə fəaliyyət halındadır. Biz heç hiss etmədən müdafiə sistemimiz mikroblara qarşı böyük bir mübarizə aparar. Əvvəlcə mikrobların bədənimizə girib yerləşməsinə mane olmağa çalışar. Əgər mikroblar bədənimizə daxil olubdurlarsa, bunları dərhal yox edərlər.

**Şagirdlər**: Müəllim, bəs onda niyə xəstələnərik?

**Müəllim:** Budur uşaqlar, əgər soyuqda uzun müddət qalsaq, qidalanmağımıza diqqət yetirməsək bədənimiz gücdən düşər. Belə olduqda müdafiə sistemimiz də zəifləyər. Yox edilə bilməyən mikroblar çoxalaraq dərhal bədənimizdə yayılmağa başlayar.

**Şagirdlər:** Müəllim, bəs belə olduqda mikroblar dərhal bütün bədənimizi ələ keçirərlərmi?

**Müəllim:** Xeyr, uşaqlar. Bu vəziyyətdə müdafiə sistemimiz mikroblara qarşı daha böyük bir mübarizəyə başlayar. Məhz bədənimizdə baş verən bu böyük mübarizəyə görə hərarətimiz yüksələr, halsızlaşar, oynaqlarımız ağrımağa başlayar.

**Şagirdlər:** Bəli müəllim, belə olduqda yataqdan dura bilməyəcək hala gəlirik.

**Müəllim:** Əlbəttə ki, bu vəziyyətdə olan ən əhəmiyyətli şey yatıb istirahət etməkdir. Əgər belə etsək və həmçinin dərmanlarımızı qəbul edib qidalanmağımıza diqqət etsək müdafiə sistemimizi gücləndirərək ona kömək etmiş olarıq. Beləcə onlar mikroblara qarşı mübarizədə güclü vəziyyətə gələr və qısa müddətdə onları məğlub edərək bədənimizdən atarlar. Beləcə biz də sağlamlığımıza qovuşarıq.

**Şagirdlər:** Müəllim, niyə xəstələndiyimizi indi çox yaxşı başa düşdük. Bundan sonra özümüzə çox diqqət yetirəcəyik.

**Müəllim:** Bəli uşaqlar, Allahın bizi yaradarkən bədənimizə belə bir müdafiə sistemi yerləşdirməsi çox böyük bir nemətdir. Bunun üçün Allaha çox şükür etməliyik. Allahın bizə verdiyi sağlamlığı itirməmək üçün özümüzə çox diqqət yetirməliyik.

# ƏLAVƏ FƏSİL:
# TƏKAMÜL YALANI

Kitabın bu hissəsində Allahın varlığını qəbul etməyən, "hər şey öz-özünə meydana gəldi" deyə məntiqdən kənar iddialar irəli sürən təkamülçülərdən bəhs edəcəyik. Bu insanlar həmişə yalan danışaraq insanları aldatmağa çalışırlar.

Ancaq bir insan yalan danışdıqda yalanı bir müddət sonra ortaya çıxar. Əgər qarşısındakı ağıllı biridirsə onun yalan danışdığını dərhal başa düşər. Təkamülçülər də yalan danışdıqları üçün gizlətmək istədikləri bir çox məsələni özləri də istəmədən izah edirlər. Sonrakı səhifələrdə onların dediklərinin nə qədər məntiqsiz olduğunu, yalanlarının necə ortaya çıxdığını hamımız birlikdə görəcəyik...

## TƏKAMÜL NƏZƏRİYYƏSİ NƏDİR?

Allahın varlığına inanmayan insanların irəli sürdükləri azğın iddialardan biri "təkamül nəzəriyyəsi"dir. Təkamül nəzəriyyəsini ortaya atan adam, yaşadığımız dövrdən təxminən 150 il əvvəl yaşamış olan Charles Darvindir. Darvinin məntiqdən kənar nəzəriyyəsinə görə, hər şey təsadüfən və öz-özünə meydana gəlmişdi. Darvin müxtəlif canlı növlərinin dəyişərək bir-birlərinə çevrildiklərini və belə meydana gəldiklərini zənn edirdi. Məsələn, Darvinə görə balıqlar bir gün təsadüfən bir sürünənə çevrilmişdilər. Bir gün bir təsadüf daha baş vermiş və bir sürünən uçmağa başlamış beləcə quşlar meydana gəlmişdi. İnsanlar isə meymunlardan əmələ gəlmişlərdi. Yəni, Darvinə görə insanın əcdadı bir meymun idi. Əlbəttə ki, bunların heç biri doğru deyil. Tək doğru və həqiqi olan kainatı, dünyanı, bütün canlıları və bizi Allahın yaratdığıdır. Başda Darvin olmaqla bunun əksini iddia edənlər isə böyük bir yalan deyirlər. Gəlin, Darvinin ortaya atdığı yalanın nə qədər axmaq olduğunu daha yaxından araşdıraq.

Canlı və cansız bütün maddələri meydana gətirən ən kiçik hissə atomlardır. Bu, ətrafınızdakı hər şey kimi sizin də əslində milyonlarla atomun bir yerə gəlməsindən meydana gəlməniz deməkdir.

Təkamülçülər, yəni Darvinə inananlar isə atomların öz özlərinə təsadüfən qərar verib, bir yerə gəldiklərini və beləcə canlıları meydana gətirdiklərini deyirlər. Bu ağılsız inanca əsasən bir gün şiddətli bir külək və ya bir qasırğa baş verdi və bu atomlar yan-yana gəlib birləşdilər. Darvinin yalanına görə sonra bu atomlar birləşərək hüceyrələri meydana gətirdilər. Bilirsiniz ki, bütün canlılar hüceyrələrdən meydana gəlir. Hüceyrələr də bir araya gələrək bizim gözlərimizi, qulaqlarımızı, qanımızı, ürəyimizi qısacası bütün bədənimizi meydana gətirərlər.

Ancaq bunu unutmamaq lazımdır ki, hüceyrələr çox mürəkkəbdirlər. Bir hüceyrənin içində yüzlərlə müxtəlif kiçik orqanoid vardır. Hüceyrəni çox böyük bir fabrikə bənzədə bilərik. Maddə hazırlayanlar, hazırlanan maddələri daşıyan vasitələr, giriş və çıxış qapıları, istehsal müəssisələri, mesaj gətirib aparanlar, enerji mərkəzləri... Bəs bir fabrikin daşların, torpağın, suyun təsadüflər nəticəsində bir yerə gəlməsiylə, məsələn baş verən bir fırtınadan sonra, öz-özünə meydana gəlməsi mümkündürmü? Əlbəttə ki, xeyr. Hamı belə bir iddiaya gülər. Amma təkamülçülər "hüceyrə təsadüfən meydana gəldi" deyərək ən az bunun qədər axmaq bir şey demiş olarlar.

**Elə isə təkamülçülərdən bir təcrübə aparmalarını tələb edək!**

Təkamülçülər böyük bir çəllək götürsünlər. Bu çəlləyin içinə istədikləri bütün atomları qoysunlar. Bundan başqa çəlləyin içinə nə qoymaq istəyirlərsə onu da qoysunlar. Bir canlının meydana gəlməsi üçün lazım olan bütün vəsaitləri doldursunlar. Sonra da bu çəlləyi istəsələr qızdırsınlar, istəsələr də elektrik versinlər. Nə istəyirlərsə etmələri sərbəst olsun. Milyardlarla il də çəlləyin başında növbə dursunlar. (Ömürləri çatmayacağı üçün bu növbəni nəsildən-nəslə ötürsünlər).

**Bunun nəticəsində nə baş verər?**

Sizcə bu çəlləyin içindən quzular, bənövşələr, ağaclar, dovşanlar, arılar, qarpızlar, pişiklər, itlər, dələlər, güllər, alçalar, çiyələklər, balıqlar, fillər, zürafələr, aslanlar çıxar mı? Bu çəlləyin içindən sizin kimi düşünən, sevinən, həyəcanlanan, musiqi eşitdikdə xoşuna gedən, kitab oxuya bilən, ailəsini, yoldaşlarını sevən bir insan çıxa bilərmi? Əlbəttə ki, çıxa bilməz. O çəlləyin içindən çəlləyin başında gözləyən təkamülçü professorlardan təkcə biri belə çıxa bilməz. Hətta nəinki bir professor, o professorun trilyonlarla hüceyrəsindən tək biri belə çıxa bilməz.

Atomlar cansızdır. Cansız maddələr birləşib canlı, gülən, sevinən, düşünən bir varlıq meydana gətirə bilməzlər. O çəlləyin içindən heç bir canlı varlıq çıxmaz. Bu qeyri-mümkündür. Çünki canlılar cansız maddələrin təsadüfən bir yerə gəlmələri nəticəsində meydana gələ bilməz. Canlıları Allah yaradıb. Heç bir şey olmadığı halda, Allah insanı, dağları, gölləri, quzuları, aslanları, çiçəkləri, ətrafımızda gördüyümüz və ya görə bilmədiyimiz bütün varlıqları yoxdan yaratmışdır.

## TƏKAMÜLÇÜLƏRƏ GÖRƏ CANLILAR NECƏ TƏKAMÜLLƏŞMİŞLƏR?

Bütün canlı növlərini Allah yaratmışdır və heç bir canlının başqa birindən törəməsi qeyri-mümkündür. Çünki hər canlı növü çox müxtəlif xüsusiyyətlərə malikdir. Quşlarla, pişiklər bir-birlərinə bənzəməzlər ya da atlarla balıqlar, pələnglərlə kəpənəklər... Təkamül nəzəriyyəsinin yalanlarına əsasən, canlılar vaxt keçdikcə təkamülləşmiş, yəni inkişaf edib, fərqli xüsusiyyətlər qazanaraq başqa bir canlıya çevrilmişlərdir. Nümunə olaraq quşlar haqqında təkamülçülərin nağıllarına bir nəzər salaq. Tısbağaları, kərtənkələləri, ilanları, bir sözlə, sürünənləri hamınız tanıyırsınız. Bu canlı növü təkamülçülərə görə təsadüfən dəyişmiş və quşlara çevrilmişdir. Təkamülçülər məhz belə axmaq bir iddiaya inanarlar. Bəs sürünənlərə təsir etdiyini və dəyişmələrini təmin etdiyini iddia etdikləri hadisələr hansılardır?

Təkamülçülər “mutasiya” və “təbii seleksiya” adını verdikləri iki ayrı hadisənin bir yerdə meydana gəlməsiylə təkamülün baş verdiyinə inanarlar. Ancaq bu çox məntiqsiz bir inancdır və heç bir elmi dəlili də yoxdur. Niyə mi? Birlikdə araşdıraq.

### Təbii seleksiya nədir?

Təbii seleksiyanın ən sadə mənası budur: Canlılar arasında güclü olanlar həyatlarını davam etdirə bilər, gücsüzlər isə dərhal yox olub gedərlər. Bunu belə bir misalla izah edək: Tez-tez vəhşi heyvanların hücumuna məruz qalan bir maral sürüsü fikirləşin. Bu vəziyyətdə marallar sürətlə qaçacaq və ən sürətli qaçan, ən çevik marallarsa xilas olacaq. Vaxt keçdikcə zəif və taqətsiz marallar həmişə vəhşi heyvanlar tərəfindən ovlandıqları üçün tamamilə yox olacaqlar. Geriyə yalnız sağlam və güclü marallar qalacaq. Nəticə etibarilə maral sürüsü bir müddət sonra həmişə güclü marallardan meydana gələcək.

Bura qədər izah edilənlər doğrudur. Lakin bunun təkamüllə heç bir əlaqəsi yoxdur. Buna baxmayaraq təkamülçülər, "bu maral sürüsü tədricən inkişaf edərək sonunda başqa bir canlıya çevrilər, məsələn marallar zürafə olar" deyirlər. Məhz bu səhvdir. Çünki heç bir maral daha sürətli qaçdığı üçün başqa bir canlıya, məsələn bir aslana və ya bir zürafəyə çevrilə bilməz. Belə bir şey yalnız nağıllarda olar.

Hamınız qurbağa ilə şahzadə nağılını bilirsiniz. Bir nağılda bir qurbağa şahzadəyə çevrilə bilər. Amma həqiqi həyatda bir maralın aslana və ya başqa bir canlıya çevrilməsi, əlbəttə ki, qeyri-mümkündür. Lakin təkamülçülər, belə bir nağıla inanırlar.

## Mutasiya nə deməkdir?

Mutasiya bir canlının bədənində meydana gələn mənfi istiqamətdəki dəyişikliklərdir. Mutasiyalar radiasiya, kimyəvi maddələr kimi faktorlarla meydana gələr. Radiasiyanın və kimyəvi maddələrin canlılar üzərindəki təsiri həmişə zərərlidir. Məsələn, yaşadığımız dövrdən təxminən 55 il əvvəl II dünya müharibəsində Yaponiyanın Hirosima şəhərinə atom bombası atılmışdı. Atom bombası, atıldığı yerin ətrafına radiasiya yaydı və bu, insanlara çox böyük zərərlər verdi. İnsanların bir çoxunun ölməsinə və ya ciddi şəkildə xəstələnmələrinə səbəb oldu. Hətta insanların bədənlərindəki bəzi sistemlər pozduğu üçün bu insanların uşaqları da gələcəkdə xəstə və ya şikəst doğuldu.

Buna bənzər bir hadisə 1986-ci ildə də Rusiyanın Çernobıl şəhərində baş verdi. Çernobılda bir nüvə stansiyasında partlama meydana gəlmiş və buna görə bütün şəhərə və ətrafına radiasiya yayılmışdı. Eynilə Yaponiyada olduğu kimi, orada yaşayan insanlar və onların sonradan doğan uşaqları, radiasiyanın səbəb olduğu mutasiyalar səbəbiylə şikəst qaldılar və ya öldülər.

Məhz təkamülçülər belə zərərli bir hadisə haqqında bunları iddia edərlər: Məsələn, bir balıq bir gün bir mutasiya keçirər, yəni Yaponiyadakı insanlar kimi radiasiya bənzəri bir hadisəylə qarşılaşar. Bu mutasiya nəticəsində balığın bədənində bəzi dəyişikliklər baş verər və balıq bir gün qarşınıza timsah olaraq çıxar. Əlbəttə ki, bu çox axmaq bir iddiadır. Çünki yuxarıda da bəhs etdiyimiz kimi mutasiyalar canlılara dərhal həmişə zərər verərlər. Onları ya şikəst buraxar ya da xəstə edərlər. Əgər mutasiyalar faydalı olsaydı, Çernobılda radiasiya sızıntısı baş verdikdə təkamülləşib daha inkişaf etmiş bir canlı olmaq üçün hamı oraya gedərdi. Halbuki hamı Çernobıldan qaçmışdır. Həmçinin Çernobılın mənfi təsirləri hələ də davam edir.

Təkamülçülərin bu iddiasını belə bir nümunəyə bənzədə bilərik. Əlinizə bir balta alsanız və rəngsiz bir televiziyaya vurmağa başlasanız, bu televizoru rəngli bir televizora çevirə bilərsinizmi? Əlbəttə ki, xeyr. Baltayla televizora təsadüfi vurduğunuz vaxt, o parça-parça olar. Məhz, eynilə, baltayla təsadüfi vurmaq kimi, mutasiyalar da canlılara yalnız zərər verərlər. Yəni, təkamülçülərin dedikləri kimi bir canlını daha yaxşı hala gətirməzlər.

# TƏKAMÜLÇÜLƏRİN NƏDƏNSƏ TAPA BİLMƏDİKLƏRİ FOSİLLƏR

Bəzi canlılar öldükləri vaxt arxalarında iz qoyarlar və bu izləri, yəni qalıqları milyonlarla il heç xarab olmadan qala bilər. Ancaq bunun baş tutması üçün o canlının hava ilə təması qəflətən kəsilməlidir. Məsələn, bir quş yerdə dayanarkən üstünə qəflətən qum tökülsə və quş oradaca ölsə, bu quşun qalıqları dövrümüzə qədər gəlib çata bilər və ya ənbər adında ağaclardan axan mayelər var. Bəzən bu ənbər bir böcəyin üstünə axar və böcək bu ənbərin içində ölər. Beləcə sərtləşərək milyonlarla il heç xarab olmadan dövrümüzə qədər gəlib çata bilər. Biz də beləcə çox əvvəldən yaşamış olan canlılar haqqında öyrənə bilərik. Məhz canlılardan qalan bu qalıqlara "fosil" deyilir.

**"Ara növ" fosilləri nə deməkdir?**

Təkamülçülərin uydurduqları yalanların ən əhəmiyyətlilərindən biri ara növlərdir. Bəzi təkamülçü kitablarda ara növlərə "ara keçid forması" da deyilər. Bildiyiniz kimi təkamülçülər canlıların bir-birlərindən meydana gəldiklərini deyirlər. Yəni, onların axmaq iddialarına əsasən ilk canlı təsadüfən meydana gəlmişdir. Sonra vaxt keçdikcə o canlı başqa bir canlıya, o da başqa birinə çevrilmiş və bu beləcə davam etmişdir. Məsələn təkamülçülərə görə balıqlar dəniz ulduzları kimi canlılardan törəməşlərdir. Yəni, bir dəniz ulduzu bir gün mutasiyalar nəticəsində əvvəlcə bir qolunu itirmiş, sonra da milyonlarla il ərzində digər qollarını da itirmiş və bu qollarından bəzisi özbaşına üzgəcə çevrilmişdir. Bu vaxt yenə bir dəniz ulduzunun balığa çevrilməsi üçün lazım olan dəyişikliklər meydana gəlmişdir. (Belə bir şeyin olması əsla mümkün deyil, amma biz bu iddianın nə qədər axmaq olduğunun başa düşülməsi üçün bu şəkildə izah edirik.) Buna görə də təkamülçü nağıla əsasən, bir dəniz ulduzu balığa çevrilərkən çox keçid mərhələsi yaşamalıdır.

Məhz aradakı keçid mərhələsi olan bu xəyali canlılara təkamüldə ara növ deyilir. Yenə təkamülün məntiqsiz iddialarına əsasən bunlar həmişə yarım organlı canlılar olmalıdır. Məsələn bir balıq bir sürünənə çevrilərkən arada meydana gələn növlərin yarım ayaqları, yarım üzgəcləri, yarım ağciyərləri, yarım qəlsəmələri olmalıdır. Yaddan çıxardılmamalıdır ki, keçmişdə belə qəribə canlılar yaşayıblarsa biz mütləq onların qalıqlarını, yəni fosillərini tapmalıyıq. Ancaq maraqlı budur ki, bu günə qədər təkamülçülərin mövcud olduğunu iddia etdikləri bu ara növ qalıqlarından heç tapılmamışdır.

Bu günə qədər yer üzündə bir çox qalıq tapılmışdır, amma bunların heç biri təkamülçülərin iddia etdikləri "ara növ"lərdən deyil. Bu da bizə bunu göstərir: Canlılar bir-birindən törəməmişdir. Hamısı nöqsansız və qüsursuz bir şəkildə, bu günkü yaşayan nümunələrindən heç bir fərqləri və nöqsanları olmadan bir anda meydana gəlmişlər. Yəni, hamısını Allah yaratmışdır.

# KEMBRİ DÖVRÜNDƏ NƏLƏR BAŞ VERDİ?

Ən qədim canlı qalıqları, Kembri dövrü olaraq bilinən və yaşadığımız dövrdən tam 500 milyon il əvvəl yaşanan bir dövrdən qalmadır. Bunlar ilbiz, soxulcan və dəniz ulduzu kimi canlılara aiddir. Kembri

dövründə yaşamış olan canlılar da bizə təkamül nəzəriyyəsinin səhv olduğunu göstərən dəlillərdəndir. Necəmi?

Kembri dövründəki bu canlılar da digər bütün canlılar kimi birdən-birə ortaya çıxmışlar. Bu canlıların birdən-birə ortaya çıxmaları Allahın onları bir anda yaratdıqlarını göstərər. Əgər təkamülçülərin iddia etdikləri kimi olsaydı, bu canlıların da, özlərindən daha ibtidai əcdadlardan yavaş-yavaş təkamül keçirərək o hala gəlmələri lazım idi. Lakin, bu canlıların özlərindən əvvəl yaşamış heç bir əcdadları, ara-keçid növləri yoxdur. Fosil qeydlərində belə canlılara heç rast gəlinməmişdir. Fosillər bizə göstərir ki, Kembri dövründə ortaya çıxan bu canlılar, bütün digər canlılar kimi birdən-birə və nöqsansız olaraq ortaya çıxmışdır. Bu da, onları Allahın yaratdığının ən aydın dəlilidir.

Həmçinin Kembri dövründə yaşamış olan bu canlıların çox əhəmiyyətli xüsusiyyətləri var idi. Məsələn o dövrdə yaşayan, amma sonra nəsli tükəndiyi üçün bu gün bizim görə bilmədiyimiz Trilobit adlı canlının çox mürəkkəb və mükəmməl quruluşda gözləri var idi. Tribolitin gözü yüzlərlə pətəkdən meydana gəlirdi və bu yüzlərlə pətək onun çox yaxşı görməsini təmin edirdi. Belə mükəmməl orqanlara sahib canlıların isə, təsadüflərin yardımı ilə özbaşına ortaya çıxmasının qeyri-mümkün olduğu aydındır.

## BALIQLARIN SÜRÜNƏNLƏRƏ ÇEVRİLDİKLƏRİ YALANI

Təkamülçülər, sürünənlərin balıqlardan meydana gəldiklərini deyirlər. Onlara görə balıqlar bir gün dənizlərdə yemək azaldıqda quruya çıxmağa qərar vermiş və sonra da quruda yaşaya bilmək üçün sürünənlərə çevrilmişlərdir. Gördüyünüz kimi bu çox gülməli bir iddiadır. Çünki quruya çıxan bir balığa nə olacağını hamı çox yaxşı bilir: Balıqlar ölər!

Siz heç balıq tutmağa getmişdinizmi? Bir düşünün! Bir balıq qarmağınıza düşsə, sonra da onu götürüb xilas etsəniz və evinizin bağçasına qoysanız nə baş verər? Bir az əvvəl də dediyimiz kimi bu balıq qısa müddətdə ölər. Bir gün çox balıq tutsanız və bunların hamısını aparıb bağçanıza qoysanız nə baş verər? Dəyişən bir şey olmaz və bütün balıqlar ölər.

Məhz təkamülçülər bunu qəbul etməzlər. Deyərlər ki, bu balıqlardan biri bağçada ölümü gözləyərkən birdən dəyişməyə məruz qaldı, bir sürünən oldu və yaşamağa davam etdi! Əsla belə bir şey mümkün deyil!

Çünki bir balığın quruda yaşayan heyvanlardan fərqi çoxdur və bunların heç biri təsadüfən bir anda meydana gələ bilməz. Bir balığın quruda yaşamaq üçün ehtiyac duyacağı şeylərdən bir neçəsini belə sıralaya bilərik:

1. Balıqlar suda yaşadıqları üçün qəlsəmələri ilə nəfəs alıb verirlər. Ancaq quruda qəlsəmələri ilə yaşaya bilməz və ölərlər. Bunun üçün bir ağciyərə sahib olmaları lazımdır. Yaxşı, tutaq ki, bir balıq quruya çıxmağa qərar verdi. Özünə bir ağciyəri hardan tapacaq? Üstəlik ağciyər kimi bir orqanın varlığından xəbəri belə yoxdur.

2. Balıqların bizim kimi bir böyrək sistemləri də yoxdur. Ancaq quruda yaşaya bilmələri üçün belə bir sistemə ehtiyacları vardır. Quruya çıxmağa qərar verdikdə, balığın hər hansı bir yerdən özünə bir böyrək tapa bilməyəcəyi çox aydındır.

3. Balıqların ayaqları yoxdur. Buna görə də quruya çıxdıqda yeriyə bilməzlər. Görəsən quruya çıxmağı ilk bacaran balıq bu ayağı necə tapmışdır? Belə bir şey qeyri-mümkün olduğuna görə təkamülçülərin bu mövzuda da yalan danışdıqları ortaya çıxır.

Bunlar bir balığın quruda yaşaya bilməsi üçün sahib olması lazım olan yüzlərlə xüsusiyyətdən yalnız üçüdür.

### Coelecanth adlı balıq haqqında

Təkamülçülər illərlə Coelecanth (sölekant) adlı bir balığı quruya çıxmaq üzrə olan bir ara növ olaraq təqdim etdilər. Bütün kitablarında, jurnallarında bu balığı təkamülün dəlili kimi göstərdilər. Coelecanthın nəsli tükənmiş bir balıq olduğunu, yəni indiki vaxtda yaşamadığını zənn edirdilər. Buna görə də bu balığın fosilinə baxaraq bir çox yalan uydurdular.

Ancaq bir gün bir balıqçı dənizdə ov edərkən bu balıqdan tutdu. Sonra bu balıqdan bir neçə dəfə də tutuldu. Və aydın oldu ki, Coelecanth normal bir balıq idi. Heç də təkamülçü nağıllarında iddia edildiyi kimi quruya çıxmağa hazırlıq görmürdü. Təkamülçülər Coelacanthın fosilinə baxıb “bu balıq dayaz sularda üzürdü, yəni quruya çox yaxındı, az qala quruya çıxacaqdı” deyirdilər. Halbuki Coelecanth, dayaz sularda deyil, çox dərin sularda yaşayırdı. Yəni, Coelecanth təkamülçülərin dediyi kimi bir ara növ deyildi. İndiki vaxtda da yaşayan həqiqi bir balıq idi. Təkamülçülərin bunun kimi daha bir çox yalanları da ortaya çıxmışdır.

## QUŞLARIN TƏKAMÜLÜ İDDİASI BİR YALANDIR

Təkamülçülərin çox axmaq iddialarından biri də quşların necə meydana gəldiyi ilə əlaqədardır. Təkamülçülərin dedikləri bir hekayəyə görə ağaclarda yaşayan sürünənlər, vaxt keçdikcə budaqdan budağa tullanmağa başlamış və sonunda da qanadlanmışdılar. Yenə başqa bir hekayəyə görə bu dəfə bəzi sürünənlər milçək tutmaq üçün ön qollarını çırpa-çırpa qaçdıqları vaxt ön qolları qanadlara çevrilmişdi.

Bir dinozavrın qaçarkən qanadının çıxdığına inanmaq çox gülməlidir, elə deyilmi? Belə şeylər ancaq nağıllarda, cizgi filmlərdə olar.

Üstəlik çox əhəmiyyətli bir mövzu da var. Təkamülçülər böyük dinozavrın milçək tutmağa çalışarkən qanadlarının çıxdığını deyirlər. Yaxşı, amma sizcə milçək necə uçur? Onun qanadları necə əmələ gəlmişdir? Böyük bir dinozavrın necə uçduğunu izah etməyə çalışmaq əvəzinə, kiçik bir milçəyin necə uça bildiyini izah etmələri lazım deyildimi? Əlbəttə ki, lazım idi...

Ancaq təkamülçülər bunu heç izah edə bilmirlər. Çünki milçək dünyadakı ən yaxşı uçan canlılardan biridir. Saniyədə 500-1000 dəfə qanadlarını çırpa bilir. Və bildiyiniz kimi olduqca çevik bir şəkildə istədiyi istiqamətdə hərəkət edə bilir. Təkamülçülər nə qədər yalan danışsalar belə quşların qanadlarının necə meydana gəldiyini izah edə bilməzlər. Çünki doğrusu budur: Quşları da, milçəkləri də qanadları və uçma qabiliyyətləri ilə birlikdə Allah yaratmışdır.

### Təkamülçülərin ara növ dedikləri Archaeopteryx (arxeopteriks) əslində tam bir quşdur!

Sürünənlərlə quşlar arasındakı yüzlərlə fərqdən bir neçəsini belə sıralaya bilərik:

1. Quşların qanadları, sürünənlərin isə ayaqları vardır.

2. Quşların tükləri, sürünənlərin isə pulcuqları vardır.

3. Quşların özlərinə xas bir skelet strukturları vardır. Sümüklərinin içi boşdur və buna görə də ağır olmadıqları üçün asanlıqla uça bilirlər.

Bunlar ilk ağla gələn bir iki mövzudur. Bundan başqa bu canlılar arasında xeyli fərqlər vardır. Sizə əvvəlcə də dediyimiz kimi əgər bir sürünən bir quşa çevrilmiş olsaydı, bu keçidin mərhələlərini göstərən bir çox heyvan yaşamış olmalıydı. Və biz qalıqlar arasında bu heyvanların da fosillərini görmürük. Yəni, yarım qanadlı, yarısı tüklü yarısı pulcuqlu, yarım dimdikli, yarım ağızlı qəribə varlıqlara aid qalıqlar olması lazım idi. Amma dünyadakı qalıqların arasında belə bir varlıq yoxdur. Tapılan fosillər ya tam bir sürünənə ya da tam bir quşa aiddir. Deməli, quşlar sürünənlərdən təkamül keçirməmişlərdir. Bütün digər canlılar kimi quşları da Allah yaratmışdır.

Ancaq təkamülçülər bunu qəbul etmək istəmədikləri üçün yalan danışaraq insanları inandırmağa çalışmışlar. İndiki vaxtda yaşamayan, təxminən 150 milyon il əvvəl yaşamış olan Archaeopteryx (arxeopteriks) adlı bir quşun qalığını tapmışlar və bu quşun yarı quş, yarı dinozavr olan bir ara keçid forması olduğunu iddia etmişlər. Və "Archaeopteryx quşların əcdadıdır" deyə məntiqsiz bir fikir ortaya atmışlar.

Ancaq bu qəti bir yalandır: Archaeopteryx tam bir quşdur! Çünki;

1. Archaeopteryxin, eyni indiki vaxtda uçan quşlar kimi tükləri vardır.

2. Uçan quşların qanadlarının birləşdiyi döş sümüyünün eynisi Archaeopteryxdə də vardır.

3. Archaeopteryx quşların əcdadı ola bilməz. Çünki ondan daha yaşlı quşların qalıqları tapılmışdır. Yəni, Archaeopteryxin olmadığı vaxt da quşlar var idi.

## İNSANIN TƏKAMÜLÜ NAĞILI

Təkamülçülər insanların meymundan təkamülləşdiyini, yəni insanların əcdadlarının meymunlar olduğunu iddia edirlər. Ancaq, nə Darvinin, nə də digər təkamülçülərin bu iddiasını təsdiqləyəcək heç bir dəlilləri yoxdur. Bu iddia da yenə tamamilə xəyali bir yalandır.

Əslində, təkamül nəzəriyyəsinin ortaya atılış səbəblərindən biri, insanlara, özlərini Allahın yaratdığını unutdurmağa çalışmaqdır. İnsanlar, əgər təsadüfən yarandıqları və əcdadlarının bir heyvan olduğu yalanlarına inansalar, Allaha qarşısında məsuliyyət hiss etməzlər. Beləcə insanlar artıq, bütün mənəvi dəyərlərini unudar, yalnız öz mənfəətlərini düşünən insanlara çevrilərlər. Yalnız öz mənfəətini düşünən insanlar, vətən sevgisi, bayraq sevgisi, ailə sevgisi, fədakarlıq, şəfqət, mərhəmət kimi çox dəyərli duyğularını da itirərlər. Məhz təkamülçülər belə mənəvi dəyərlərdən uzaq insanlar yaratmaq üçün təkamül nəzəriyyəsini müdafiə edirlər. Məqsədləri insanlara Allahın varlığını unutdurmaqdır. Və buna

görə də insanlara "sizi Allah yaratmadı. Siz meymunlardan yarandınız, yəni siz inkişaf etmiş bir heyvansınız" deyərlər.

Halbuki insanı Allah yaratmışdır. Və insan, digər bütün canlılardan fərqli olaraq danışa bilən, düşünə bilən, sevinə bilən, qərar verə bilən, ağıl sahibi, sivilizasiyalar meydana gətirə bilən, ünsiyyət qura bilən yeganə canlıdır. İnsana bu xüsusiyyətlərinin hamısını verən Allahdır.

## Təkamülçülər insanın meymundan əmələ gəldiyinə heç bir dəlil göstərə bilməzlər

Elm sahəsində "dəlil" göstərmək çox əhəmiyyətlidir. Əgər siz hər hansı bir şey bir iddia etsəniz və insanların buna inanmalarını istəsəniz, mütləq bir dəlil göstərməlisiniz. Məsələn yeni tanış olduğunuz insanlara "mənim adım Aişə" dediniz və bu insanlardan biri çıxıb dedi ki, "mən sizin adınızın Aişə olduğuna inanmıram". Bu vəziyyətdə bu adama dəlil göstərərək adınızın Aişə olduğunu sübut edə bilərsiniz. Dəliliniz nə ola bilər? "Şəxsiyyət vəsiqə"niz bir dəlil ola bilər. Bunu qarşınızdakı adama göstərsəniz, artıq sizə qətiyyən etiraz edə bilməz.

Bir də elmi nümunə verək. Dövrümüzdən bir neçə əsr əvvəl Nyuton adında məşhur bir alim çıxmış və "dünyada cazibə var" demişdir. Bunu hardan bildiyini soruşanlara isə bir dəlil göstərmişdir. "Bir alma budağından kəsildikdə yerə düşür, havada dayanmır. Deməli, yerdə onu çəkən bir güc var və bu gücün adı da cazibədir" demişdir.

Elə isə təkamül nəzəriyyəsinin də elmi olaraq inandırıcı olması üçün dəlil göstərməsi lazımdır. Məsələn təkamül nəzəriyyəsi deyir ki, insanın əcdadı meymundur. Belə olduqda biz də təkamülçülərdən soruşacağıq: Bunu hardan bilirsiniz? Dəliliniz varmı?

Əgər insanın əcdadı meymun olsaydı, dəlil olaraq yarı insan, yarı meymun varlıqların fosillərini axtarmaq lazım idi. Ancaq bu günə qədər belə bir qalıq tapılmamışdır. Əlimizdə ya meymun qalıqları, ya da insan qalıqları vardır. Yəni, təkamülçülərin insanın əcdadının meymun olduğuna dair heç bir dəlilləri yoxdur!

Ancaq təkamülçülər bu mövzuda saxtakarlıqlar edərək insanları aldatmağa çalışırlar.

**Təkamülçülərin bəzi yalanları:**

1. Təkamülçülər yarı insan, yarı meymun bir varlıq tapdıq deyərək nəsli tükənmiş meymunların fosillərini göstərərlər.

Buna bənzər şəkilləri mütləq bir yerlərdə görmüsünüz. Məhz təkamülçülər belə şəkillər çəkərək insanları aldatmağa çalışırlar. Halbuki, belə canlılar heç vaxt yaşamamışlar. Keçmişdə də indi olduğu kimi tam insanlar və tam meymunlar vardır. Heç vaxt burada çəkildiyi kimi yarı meymun, yarı insan varlıqlar yaşamamışlar. Belə bir şeyin olması qətiyyən mümkün deyil. Onsuz da əvvəlcə dediyimiz kimi bununla əlaqədar tək bir qalıq belə tapa bilməmişlər.

Ancaq təkamülçülər bu mövzuda həmişə saxtakarlıq edərlər. Məsələn nəsli tükənmiş, indiki vaxtda yaşamayan bir meymun növünün qalığını götürər, buna insan sümüklərindən əlavələr edər və bunu yarı insan yarı meymun bir varlıqmış kimi təqdim edərlər. Bu mövzularda çox məlumatı olmayan bəzi insanlar da təkamülçülərin bu yalanına inanarlar.

2. Təkamülçülər müxtəlif insan irqlərinə aid fosilləri insanın əcdadı olan yarı insan yarı meymun varlıqlar kimi təqdim edirlər.

Hamınızın bildiyi kimi yer üzündə bir çox irqdən olan insan vardır. Zəncilər, Çinlilər, Qırmızıdərililər, Afrikalılar, Eskimoslar və daha bir çox fərqli irqlərə aid insanlar vardır. Əlbəttə ki, bu müxtəlif irqlərə aid insanların bəzi xüsusiyyətləri də müxtəlif olar. Məsələn Çinlilər qıyıq gözlüdür, zəncilərin dəriləri çox tünd rəngdədir, saçları qıvrımdır. Bir Qırmızıdərili və ya bir Eskimos gördükdə isə dərhal onun fərqli bir irqdən olduğunu görərsiniz.

Məhz keçmişdə də belə müxtəlif irqlərdən çox insan yaşamışdır və bu insanların bəzi xüsusiyyətləri bu günkü irqlərdən fərqlidir. Məsələn Neandertal irqinə aid insanların kəllələri bu gün yaşayan insanlarınkına nisbətən çox böyük idi. Əzələləri isə bizimkilərlə müqayisədə xeyli inkişaf etmiş və güclü idi. Ancaq təkamülçülər bu irqlər arasındakı müxtəlifliklərdən insanları aldatmaq üçün istifadə edərlər. Məsələn, bir Neandertal insanının kəllə sümüyünü tapdıqda, "budur bu insanların on minlərlə il əvvəl yaşamış olan yarı meymun, yarı insan əcdadıdır" deyərlər. Və ya bəzi irqlərin kəllələri daha kiçikdir. Bu kəllələrin fosillərini tapan təkamülçülər bu dəfə də "bu kəllənin sahibi meymunluqdan yeni xilas olmuş, insan olmağa yeni başlamışdı" deyərlər.

Halbuki bu gün də kəlləsinin böyüklüyü digər insan irqlərinə görə xeyli kiçik olan insan irqləri yaşayır. Məsələn yerli aborigenlərin kəllə sümüklərinin həcmi çox kiçikdir. Amma bu, onların yarı meymun, yarı insan varlıqlar olduğunu göstərməz. Onlar da sizin kimi və bütün digər insanlar kimi normal bir insandırlar.

Nəticə etibarilə təkamülçülərin insanların meymundan törədikləri mövzusundakı iddialarına dəlil olaraq göstərdikləri qalıqlar ya keçmişdə yaşamış və bu gün nəsli tükənmiş meymunlara, ya da nəsli tükənmiş insan irqlərinə aiddir. Yəni, yarı insan-yarı meymun varlıqlar heç vaxt yaşamamışdır!

## Təkamülçülərin böyük saxtakarlıqlarından bəziləri:

### 1. Piltdown adamı saxtakarlığı

1912-ci ildə təkamülçü elm adamları tərəfindən bir çənə sümüyü və kəllə parçası qalığı tapıldı. Çənə sümüyü meymun çənəsinə, kəllə parçası da insanınkına bənzəyirdi. Yəni, təkamülçülərə görə bu canlı, yarı insan yarı meymun idi. Bu sümük parçalarının 500 min il yaşında olduqları və insanın meymundan törədiyinə dəlil olduqları deyildi. Və bu sümüklər təxminən 40 il müddətində müxtəlif muzeylərdə təkamülün dəlili kimi nümayiş olundu.

Ancaq 1949-cu ildə bu sümüklər üzərində bəzi sınaqlar aparıldıqda çox təəccüblü bir nəticəylə qarşılaşıldı: Çənə sümüyü 500 min deyil, yalnız 2-3 yaşında idi. Bir insana aid olan kəllə parçaları da ancaq bir neçə min il yaşındaydılar.

Həqiqət sonradan aydın oldu: Təkamülçülər insan kəlləsinə meymun çənəsi əlavə edərək və üstünə kimyəvi maddələr yaxaraq köhnə görünüşü verməyə çalışmışdılar. Yəni, təkamülçülər yarı insan yarı meymun fosili tapa bilmədikləri üçün bunun saxtasını yaratmağa cəhd etmişdilər. Bu hadisə tarixə ən böyük elmi saxtakarlıqlarından biri olaraq daxil oldu...

## 2. Nebraska adamı saxtakarlığı

1922-ci ildə, bir azı dişi fosili tapıldı. Təkamülçülər bu dişin insan və meymunların ortaq xüsusiyyətlərini daşıdığını iddia etdilər. Sonra isə bu tək dişə əsaslanaraq bu dişin aid olduğu bir canlı kimi insan-meymun arası xəyali bir canlı çəkildi.

Hətta daha da irəli gedilərək bu canlının bir də ailəsi çəkildi. Bütün bu şəkillər tək bir dişə əsaslanaraq çəkilmişdi... Belə bir düşünün. Dişlərinizdən biri düşdükdə, bu dişi sizi heç görməmiş olan bir insan götürsə və dişə baxaraq sizin şəklinizin eynisi çəkəcəyini desə ona inanarsınızmı? Hətta bu dişə baxaraq yalnız sizin deyil, ailənizin də şəklini çəkəcəyini desə, bu təklif olduqca axmaq olardı, elə deyilmi? Əlbəttə ki, yalnız bir dişə baxaraq bir canlını və hətta ailəsini çəkmək tamamilə məntiqsizdir.

1927-ci ildə isə çox maraqlı bir inkişaf oldu. Dişin aid olduğu canlının skeletinin digər parçaları da tapıldı. Diş nə meymuna, nə də insana aid idi.

Diş bir donuzun dişi idi...

Yalançı təkamülçülər bu hadisə qarşısında məyus olmuşdular.

Bu şəkilləri görürsünüzmü? Hər təkamülçü tək bir kəlləyə baxaraq ayrı-ayrı şeylər çəkmişdir. Onlar da nə çəkəcəklərinə qərar verə bilməmişdir. Çünki, belə canlılar heç vaxt yaşamamışdır. Bunların hamısı təkamülçülərin təxəyyüllərinin məhsuludur. Belə ki, indi siz də küçədə bir sümük parçası tapsanız və əlinizə bir qələm götürüb belə bir şəkil çəksəniz və sonra da yoldaşlarınıza aparıb “budur bu canlılar daha əvvəl yaşamışlar” desəniz sizə nə deyərlər?

Əlbəttə ki, siz belə bir şey etməzsiniz, çünki bunun nə qədər ağılsız bir hərəkət olduğunu bilirsiniz. Təkamülçülərin bu qədər aydın bir həqiqəti görə bilməmələləri çox təəccüblüdür, elə deyilmi?

## İnsanın meymundan əmələ gəlmədiyinin dəlilləri:

1. Alimlər çox qədim dövrlərdə yaşamış olan insan qalıqları tapmışlar. Bu insan qalıqlarının bugünkü insanlardan heç bir fərqi yoxdur. Həmçinin mövcud olan bu qalıqların yaşadığı dövrdə təkamülçülərə görə insan hələ meydana gəlməməlidir. Yalnız insanın əcdadı olan meymunlar meydana gəlməlidir.

Məsələn İspaniyadakı bir mağarada aparılan qazıntılarda dövrümüzdən 800 min il əvvəl yaşamış olan bir uşağın fosilləri tapıldı. Bu uşağın üzü bugünkü uşaqlarla eyni xüsusiyyətlərə sahib idi. Halbuki təkamülçülərə görə 800 min il əvvəl insanlar yaşamamalıydılar. Onlara görə 800 min il əvvəl yarı insan yarı meymun varlıqların olması lazım idi. Ancaq İspaniyada olan fosillə aydınlaşdı ki, insan ilk yaradıldığından bəri insan olaraq mövcuddur. Heç vaxt yarı meymun, yarı insan varlıqlar yaşamamışdır.

2. Alimlər daşdan hörülmüş bir daxmanın qalıqlarını tapmışdılar. Bu daxmanın yaşını hesabladıqda 1,5 milyon ildən daha köhnə olduğunu tapdılar. Deməli, dövrümüzdən 1,5 milyon il əvvəl ibtidai insanlar yox idi. Eyni bu gün yaşayan insanlar kimi normal insanlar var idi. Bu da, təkamülçülərin insan meymundan təkamülləşmişdir, əvvəlcə ibtidai insan (yarı meymun, yarı insan) vardı, sonra təkamülləşərək bu hala gəldi iddiasını etibarsız hala salır.

3. Bu günə qədər tapılmış ən qədim insan qalıqlarından biri 1.6 milyon il yaşındakı Turkana Uşağı fosilidir. Bu fosil üzərində aparılan araşdırmalar, bunun 12 yaşındakı bir insana aid olduğu və bu adamın yetkinliyə çatsaydı boyunun 1.80 metrə yaxın olacağı müşahidə olunmuşdur. Bu fosil, bugünkü

insanla eyni skelet quruluşuna sahib olduğu üçün tək başına insanın meymundan törədiyi inancını yox etməyə kifayət etmişdir.

4. İnsan, canlılar arasında 2 ayağı üzərində şaquli vəziyyətdə yeriyən yeganə varlıqdır. At, it, meymun kimi heyvanlar dörd ayaqlı; ilan, timsah, kərtənkələ kimi canlılar da sürünəndir.

Təkamül nəzəriyyəsinin iddiasına görə milyonlarla il əvvəl dörd ayaqlı heyvanlardan olan meymunlar, yerişlərini dəyişdirərək əyri yeriməyə başlamışlar. Minlərlə il beli əyri olan meymunlar daha sonra bir gün, tamamilə şaquli vəziyyətdə yeriməyə başlamışlar. Nəticədə də insan meydana gəlmişdi. Təkamül nəzəriyyəsinin bu iddiası elmi tədqiqatların nəticələrinə deyil, tamamilə təxəyyülə əsaslanırdı. Son illərdə alimlərin gördükləri işlər təkamül nəzəriyyəsinin bu iddiasının elmi olaraq səhv olduğunu ortaya çıxardı.

Görülən işlərin nəticələrinə əsasən, canlılar enerjilərini ən yaxşı 2 ayaqlı və ya 4 ayaqlı yeridikləri vaxt istifadə edirdilər. Canlı, bu ikisi arasında, yəni əyri yeridikdə isə tam 2 misli enerji sərf edirdi.

Elə isə meymunlar niyə daha çox enerji sərf etdikləri halda milyonlarla il əyri yerisinlər? Bu eynilə bir insanın normal yerimək əvəzinə, kürəyinə çox yük alaraq yeriməyi seçməsi kimi bir şeydir. Və ya siz iki ayağınız üstündə şaquli vəziyyətdə asanlıqla yeriyərkən, birdən-birə əlləri üstə qalxaraq yeriməyə qərar verərsinizmi? Əlbəttə ki, heç bir canlı özünə ən asan gələn yerişini dəyişdirməz. Allah hər bir canlını ən asan hərəkət edə biləcəyi şəkildə yaratmışdır.

Nəticə etibarilə təkamül nəzəriyyəsi “dörd ayağı üstündə yeriyən meymun niyə bir gün iki ayağı üstündə yeriməyə qərar verdi?” sualına cavab verə bilməz.

## ƏN BÖYÜK FƏRQ

İnsanla meymun arasındakı ən əhəmiyyətli fərq isə insanın ruh sahibi olması meymunun isə ruhunun olmamasıdır. İnsan şüur sahibi, düşünə bilən, danışa bilən, düzgün cümlələr quraraq düşüncələrini digər insanlara nəql edə bilən, qərar verə bilən, hiss edən, zövq alan, sənəti bilən, şəkil çəkə bilən, musiqi bəstələyə bilən, mahnı oxuyan, ailə, vətən, millət sevgisi kimi mənəvi dəyərləri olan, elm sahibi bir varlıqdır. Bu sayılan xüsusiyyətlərin hamısı insanın ruhuna aid xüsusiyyətlərdir. Heyvanların isə ruhları yoxdur. İnsandan başqa heç bir canlı bu xüsusiyyətlərə sahib ola bilməz.

Məhz təkamülçülərin cavab verə bilmədikləri suallardan biri də budur? Bir meymunun insan ola bilməsi üçün həm fiziki xüsusiyyətlərinin dəyişməsi, həm də bu insanlara aid xüsusiyyətləri qazanması lazımdır. Bir meymunun öz-özünə danışmaq, şəkil çəkmək, düşünmək, musiqi bəstələmək kimi qabiliyyətləri qazana bilməyəcəyi çox aydındır. Əlbəttə ki, bu qeyri-mümkündür.

Allah insanı üstün xüsusiyyətlərlə yaratmışdır və heyvanlara insanlardakı bir çox xüsusiyyəti verməmişdir.

Göründüyü kimi bir meymunun insana çevrilməsi qətiyyən mümkün deyil. İnsan ilk yaradıldığı gündən bəri həmişə insandır. Balıqlar həmişə balıq olmuşdur, quşlar da həmişə quşdur. Heç bir canlı başqa birinin atası deyil. İnsanı və bütün canlıları yaradan Allahdır.

Təkamülçülərin insanların meymundan əmələ gəldiyini iddia etmələrinin səbəbi arada fiziki bir bənzərlik görmələridir. Halbuki dünyada meymundan daha çox insana bənzəyən xüsusiyyətləri olan canlılar da vardır. Məsələn bu şəkillərdə gördüyünüz tutuquşular danışa bilərlər. Və ya sprutların gözləri insanın gözünə çox bənzəyər. Pişik və itlər isə sizin də bildiyiniz kimi sözə qulaq asar, özlərinə deyilənləri yerinə yetirərlər. Biri çıxıb insanlar əvvələr itdi və ya tutuquşuydu ya da daha doğrusu sprutdu desə siz nə fikirləşərsiniz? Məhz təkamülçülərin dedikləri "insanın əcdadı meymundur" yalanının da bundan bir fərqi yoxdur.

## DARVİN VƏ TƏKAMÜLÇÜLƏRİN ƏN ÇOX QORXDUQLARI MÖVZULARDAN BƏZİLƏRİ

Göz, çox mürəkkəb və mükəmməl hazırlanmış bir orqandır. Gözü meydana gətirən 40 ayrı hissəcik var və bu hissəciklərdən biri belə olmasa göz görə bilməz.

Bütün bu kiçik hissəciklər, heç bir şəkildə təsadüfən əmələ gəlməyəcək qədər incə planlanmış strukturlara sahibdirlər. Bunlardan tək biri belə, məsələn göz linzaları olmasa göz heç bir işə yaramaz. Üstəlik yalnız linza ilə göz bəbəyinin yerləri dəyişmiş belə olsa göz vəzifəsini yerinə yetirə bilməz. Gözyaşı ifraz etməyən bir göz, çox qısa bir müddətdə quruyar və kor olar.

Gözün bu quruluşunu bir avtomobilə bənzədə bilərik. Bir avtomobili meydana gətirən yüzlərlə hissə vardır. Və bu hissələrin hamısı olsa, lakin yalnız qaz pedalı olmasa avtomobili hərəkətə gətirə bilməzsiniz. Və ya motorundakı kiçik bir tel hissəciyi qopsa avtomobil işləməz. Məhz göz də avtomobillər kimi tək bir əlaqəsi çatışmasa və ya tək bir hissəsi olmasa görə bilməz.

Buna görə də, təkamülçülər gözlərin necə meydana gəldiyini izah edə bilməzlər. Çünki bir gözün təsadüfən meydana gələ bilməsi qeyri-mümkündür. Düşünün, 40 ayrı hissəciyin eyni anda eyni yerdə təsadüfən meydana gələrək birləşmələri heç mümkün ola bilərmi? Yəni, göz bəbəyi, lens, torlu qişa, göz qapaqları, göz yaşı vəzləri və digərlərinin təsadüfən meydana gəlmələri və uyğun şəkildə bir yerə gəlmələri lazımdır. Bu da qeyri-mümkündür.

Meşədə yeriyərkən bir avtomobil görsəniz və bu avtomobilin bura necə gəldiyini soruşsanız. Sizə də meşədəki bəzi maddələrin bir araya gələrək bu avtomobili meydana gətirdiklərini desələr buna inanarsınızmı? Avtomobilin mühərriki, muftası, sükanı, əyləci, qaz pedalı, əl əyləci, şüşələri, kapotu, baqajı və daha yüzlərlə hissəsinin təsadüflər nəticəsində meydana gəldiklərini və sonra bir avtomobil meydana gətirəcək şəkildə birləşdiklərini iddia edən birinin ağlından şübhələnmək lazımdır.

Göz isə avtomobildən daha da mürəkkəb və mükəmməl bir quruluşa malikdir. Elə isə gözün də təsadüflər nəticəsində meydana gəldiyini deyənlərin ağıllarından şübhələnmək lazımdır. Darvin də gözün necə ortaya çıxdığını izah edə bilməmişdir. Və belə demişdir: **"Gözləri düşünmək məni bu nəzəriyyədən soyutdu".** (Norman Macbeth, Darwin Retried: An oppcal to reason, Boston; Gambit, 1971, səh. 101) Nəzəriyyənin yaradıcısı Darvin belə gözlərin mükəmməl quruluşu qarşısında aciz qalmışdır.

# BƏDƏNİMİZDƏKİ MƏLUMAT BANKASI: DNT

İnsan bədənində trilyonlarla hüceyrə var. Və bu hüceyrələrin hər birinin içində də bir insanın sahib olduğu bütün xüsusiyyətlər saxlanmışdır. Bəs bu məlumatlar hüceyrənin içində harada saxlanmışdır?

Hər bir hüceyrənin nüvəsində DNT adında bir molekul var. İnsan bədəninə aid bütün məlumatlar DNT-də yerləşir. Sizin saçınızın və ya gözlərinizin rəngi, daxili orqanlarınız, xarici görünüşünüz, boyunuzun hündürlüyü kimi bütün məlumatlar DNT-nizdə şifrəli olaraq mövcuddur. Bu məlumatlar isə 4 müxtəlif hərfdən istifadə olunmaqla şifrələnmişdir; A, T, Q, C. Hər hərf bir molekulun adının baş hərfini ifadə edir. Bu dörd hərf müxtəlif formalarda düzülərək müxtəlif məlumatları meydana gətirər.

Bunu bir əlifbaya bənzədə bilərsiniz. Məsələn, türk əlifbasında 29 hərf var və bu hərflərin müxtəlif düzülüşləri ilə müxtəlif sözlər meydana gəlir. Məhz DNT-dəki 4 hərfin müxtəlif şəkillərdə düzülməsi ilə müxtəlif məlumatlar meydana gələr.

DNT-də çox böyük miqdarda məlumat var. Bunun nə qədər çox olduğunu başa düşmək üçün belə bir müqayisə apara bilərik: Əgər DNT-dəki məlumatları bir kağıza köçürməyimiz lazım gəlsəydi, hər biri 500 səhifə olan 900 cilddən ibarət olan nəhəng bir kitabxana yaratmağımız lazım idi. Bu ensiklopediyaları sıxışdırmaq üçünsə bir futbol sahəsi uzunluğunda kitabxanaya ehtiyacımız olardı. Ancaq bu qədər çox məlumat bizim gözümüzlə belə görə bilməyəcəyimiz qədər kiçik olan bir molekula sıxışdırılmışdır.

Bəs bu qədər məlumatı oraya kim yazmışdır? Və bu qədər çox məlumatı o qədər kiçik bir yerə kim sıxışdıra bilmişdir? Təkamülçülər bunların hamısının təsadüfən baş verdiyini deyərlər. Amma belə bir şeyin kor, şüursuz təsadüflərin nəticəsində meydana gəlməsi qətiyyən mümkün deyil. DNT-ni də, DNT-nin içində olan məlumatların hamısını da yaradan Allahdır.

Bunu düşünün: Siz bir kitabxana dolusu ensiklopediya görsəniz, bu ensiklopediyalardakı məlumatların təsadüflər nəticəsində yazıldığını düşünərsinizmi? Yoxsa çox savadlı müəllimlərin, professorların bu ensiklopediyaları hazırladıqlarını və sonra da bu ensiklopediyaların bir mətbəədə çap olunduğunu mu düşünərsiniz? Əlbəttə ki, doğru və ağlabatan ikinci variantdır. Təkamülçülərin DNT təsadüfən meydana gəldi demələri nəyə bənzəyir bilirsinizmi? Bir gün birinin gəlib, "mətbəədə bir partlayış baş verdi və bu partlayışın nəticəsində öz-özünə bir kitabxana meydana gəldi" deməsinə bənzəyir. Və ya bir gün sinifdəki yerinizə əyləşdiniz və partanızın üstündə "Türkiyənin coğrafi xüsusiyyətlərinin" yazıldığı bir səhifə tapdınız. Bunu kim yazdı deyə soruşduqda yanınızdakı yoldaşınız sizə belə cavab versə: "Bir qədər əvvəl bu kağızın üstündə bir butulka mürəkkəb vardı. Mən səhvən stola toxunduqda mürəkkəb kağızın üstünə töküldü və bu yazı meydana gəldi". Yəqin ki, yoldaşınızın ağlından şübhələnərdiniz.

Məhz təkamülçülər bundan daha da axmaq bir şeyi iddia edərlər.

Necə ki, bir səhifə yazı belə təsadüfən öz-özünə meydana gələ bilməz, mütləq onu yazan biri vardır, DNT kimi mükəmməl bir məlumat bankı da öz-özünə təsadüflər nəticəsində meydana gələ bilməz. DNT-ni yaradan üstün və güclü olan, hər şeyi etməyə gücü çatan, yerin, göyün və onların arasındakı hər şeyin Rəbbi olan Allahdır.

# HƏR ŞEYİ YARADAN ALLAHDIR

Milyardlarla məlumatı gözümüzlə belə görə bilməyəcəyimiz qədər kiçik bir yerə sıxışdıran Rəbbimizdir.

Bizi, əllərimizi, gözlərimizi, saçlarımızı, ayaqlarımızı yaradan Allahdır.

Ailəmizi, ana-atamızı, qardaşlarımızı, yoldaşlarımızı, müəllimlərimizi yaradan da Allahdır.

Ən sevdiyimiz yeməkləri, şokoladları, tortları, konfetləri, bizə sağlamlıq və güc verən meyvə və tərəvəzləri bizim üçün yaradan Allahdır. Əgər Allah bizim üçün onları yaratmasaydı biz heç vaxt şokoladın dadını belə bilməzdik.

Bizə dad və iy bilmə hissini verən də Allahdır. Əgər Allah bunları bizə verməsəydi, biz özümüz sevdiyimiz bir şeyi yedikdə onun dadını hiss edə bilməzdik. Kartof da yesək, tort da yesək bizim üçün eyni olardı. Amma Allah biz sevək, xoşumuza getsin deyə həm gözəl dada, həm gözəl iyə sahib yeməklər yaratmış, həm də bizlərə onların dadlarını və iylərini hiss edəcək duyğular vermişdir.

Həyatınız boyunca xoşunuza gələn, zövq aldığınız, çox əyləndiyiniz bir çox şey olmuşdur. Bu bir yemək ola bilər, bir oyun və ya oyuncaq ola bilər, çox sevdiyiniz insanlarla birlikdə bir yerə getmək ola bilər. Heç vaxt unutmayın ki, bütün bunlardan zövq almağınızı təmin edən Rəbbimizdir. Allah insanlara bir çox nemət verir.

Hər şeydən əvvəl siz yox idiniz. Bir düşünün doğulmadan əvvəl heç bir yerdə deyildiniz. Yəni, siz heç yoxdunuz. Allah sizi yaratdı. Siz olmadığınız halda sizi var etdi.

Elə isə həyatımızın hər anı üçün Allaha şükr etməliyik. Hər sevindiğimiz və xoşumuza gələn şeydə dərhal Allahı düşünüb, bizlərə bunları verdiyi üçün “Allahım bunları mənə verdiyin üçün sənə şükr edirəm” deməliyik. Əgər xoşumuza gəlməyən bir vəziyyətlə qarşılaşsaq da yenə dərhal Allaha dua etməliyik. Çünki bizi bu cür vəziyyətlərdən xilas edəcək olan da yalnız Rəbbimizdir.

Allah hər duamızı mütləq eşidər və cavab verər. Çünki Allah bizim içimizdən keçənləri, düşündüklərimizi bilər, hər duamızı eşidər və cavab verər.

Bizim etməyimiz lazım olan isə, bizi yaradan, dünyanın bütün nemətlərini bizə verən Rəbbimizə ən gözəl şəkildə şükr etməkdir. Allahın hər an yanımızda olduğunu hər an bizi görüb eşitdiyini bilərək daim gözəl davranmalıyıq.

**...Sən pak və müqəddəssən! Sənin**

**bizə öyrətdiklərindən başqa**

**bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən Bilənsən, Müdriksən!**

**(Bəqərə surəsi, 32)**